QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 176 (5164) **28 sentyabr** 2016-cı il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## ***İlham Əliyev:*** “Keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir”

*“Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı”*



Səh 2

**Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə bundan sonra da möhkəmlənəcək**



5

**Mərkəzi Seçki Komissiyasının sədri referendumun nəticələrini açıqlayıb**



7

**AŞPA missiyasının ilkin rəyi: Azərbaycanda ümumxalq səsverməsi yaxşı təşkil olunub və şəffaf keçib**



7

**Referendum Aktına xalq “HƏ” dedi**



8

**Villyam Rasimora: Müşahidə apardığımız bütün məntəqələrdə səsvermənin ədalətli və düzgün keçirildiyinin şahidi olduq**



7

**Bəzi Qərb təşkilatlarının referendumla bağlı qərəzli iddiaları alt-üst oldu!**

FREEDOM HOUSE

13

12

**Xalq yenə də müxalifəti boykot etdi**



11

**ABŞ və Qərbin siyasi dairələri anlamağa məhkumdurlar...**



16

**Şəhriyar Məmmədyarov blits-turnirin qalibi olub**



# İlham Əliyev: "Keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir"

*"Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı"*

**Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.**

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və ümumiyyətlə, şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, burada şəhər sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzinin, Şahmat Məktəbinin, Uşaq İncəsənət Məktəbinin, balacalar üçün əyləncə və istirahət guşələrinin burada inşa edilməsi ərazini daha da cəlbedici məkana çevirib.



Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə əsas giriş yolunda - Sülh küçəsində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev görülən işləri əks etdirən stendə baxdı. Məlumat verildi ki, bu ilin fevralında başlanılan yenidənqurma işləri sentyabrın əvvəlində yekunlaşıb. Bakı-Quba avtomobil yolundan başlayaraq şəhərdəki "Göyərçin" abidəsinə qədər bu küçənin uzunluğu 5,2 kilometrdir. Diqqətə çatdırıldı ki, yenidənqurmadan əvvəl burada səki yox idi. Tikinti işləri zamanı yeni səkilər salınıb, yolun hər iki tərəfində yağış sularını axıdan kanalizasiya xətti çəkilib. Yol boyunca yaşıllıqlar salınıb, ağac və gül kolları əkilib, avtomatik suvarma sistemi qurulub. Yeni işıqlandırma sistemi də müasirliyi ilə diqqəti çəkir. Küçə boyunca dekorativ istinad divarları tikilib. Bildirildi ki, küçəyə 15 santimetr qalınlığında polimer asfalt örtüyü döşənib. Müasir texnologiya əsasında hazırlanan bu asfaltın özəlliyi yükgötürmə qabiliyyətinin yüksəkliyində, elastikliyinin etibarlılığında və uzun müddət davamlı olmasındadır. Eni 14 metr olan küçənin hərəkət hissəsi yenidənqurmadan sonra 22 metrə çatdırılıb. Sülh küçəsinin əsaslı təmiri və yenidən qurulması Bakıdan Sumqayıta və əks istiqamətə nəqliyyatın rahat və maneəsiz hərəkətinə hərtərəfli imkan yaradır.




Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Sumqayıt şəhərində istifadə ediləcək yeni sərnişin avtobusları təqdim edilib. AZƏRTAC xəbər verir ki, Türkiyədə istehsal edilən "AKİA" markalı bu avtobuslar 27 oturacaqlıdır. Ümumiyyətlə avtobuslarda 72 sərnişin daşına bilər. Avtobuslarda əlillər üçün yer və onların rahat minib-düşmələrindən ötrü xüsusi qurğu quraşdırılıb. Yüksək texniki göstəricilərə malik avtobuslarda mərkəzləşdirilmiş havalandırma sistemi, həmçinin daxili və xarici müşahidə kameraları var. Yeni sərnişin nəqliyyat vasitələrinin istifadəyə verilməsi ilə Sumqayıtda sərnişindaşımanın keyfiyyətini daha yüksək səviyyəyə çatdırmaq mümkün olacaq.

Prezident İlham Əliyev daha sonra əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına məlumat verildi ki, bina 1956-cı ildə istifadəyə verilib. Burada yenidənqurma işlərinə ötən ilin dekabrında başlanılıb. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olunub. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika və işıqlandırma sistemləri və digər avadanlıq quraşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, Bakı ilə yanaşı, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində olduqca mühüm layihələr icra edilir. Bu məsələyə Sumqayıtda da xüsusi diqqətlə yanaşılır.

Ardı Səh. 3

# İlham Əliyev: “Keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir”

*“Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı”*

Əvvəli Səh. 2





Burada həmin istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Bu, həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini nümayiş etdirir. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir.

Dövlətimizin başçısı Dənizkənarı bulvarın və şəhər çimərliyinin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bu istirahət məkanının tikintisinə ötən ilin oktyabrında başlanılıb. Dövlətimizin başçısı elektromobillə bulvarın ərazisini gəzdi. Sumqayıt bulvarı və dənizkənarı parkı həm ərazisinə, həm də landşaftına görə ölkəmizdə mövcud olan əksər parklardan seçilir. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir. Sahəsi 12 hektar olan çimərlik zonasında şəhər sakinlərinin və qonaqların istirahəti üçün zəruri şərait var.

Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır. Bildirildi ki, burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb. Qeyd olundu ki, bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb. Bununla yanaşı, 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, balacalar üçün 10 attraksion quraşdırılıb. Diqqətə çatdırıldı ki, sahil hissədə estakada qurulub və şəhərin akvatoriyasında gəzinti gəmilərinin hərəkətinin təmin olunması üçün işlər aparılır. Burada 500-dən çox yeni iş yeri açılacaq. Bulvarın ərazisində 4,2 kilometr uzunluğunda yeni yol çəkilib. Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Bulvar boyunca salınan yeni asfalt yolun eni 16 metrdir. Bundan başqa, 4,2 kilometr uzunluğunda istinad divarı tikilib, mərmərlə üzlənib. Müasir səviyyədə salınan yolda işıqlandırma sistemi də quraşdırılıb. Sonra dövlətimizin başçısına bulvar ərazisində inşa edilən “Kristal Abşeron” yaşayış kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, bu kompleksdə ehtiyacı olan sakinlər mənzilləri 20 illik ipoteka yolu ilə də ala bilərlər. Beləliklə, kompleks sürətlə dəyişən Sumqayıtda əhalinin mənzil probleminin həllində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev həmçinin Sumqayıtın Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub. AZƏRTAC xəbər verir ki, Sahil küçəsinin yenidən qurulması son illərdə Sumqayıtda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Yenidən qurulan Sahil küçəsi Sumqayıtın yol-nəqliyyat infrastrukturunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevə küçənin yenidən qurulması çərçivəsində görülən işlər barədə məlumat verildi. Bildirildi ki, burada yenidənqurma işləri müasir səviyyədə və qısa vaxtda aparılıb. Küçənin uzunluğu 7,5 kilometrdir. Mövcud yol 1980-ci illərin əvvəllərində salınıb. Burada təmir-tikinti işlərinə ötən ilin noyabrında başlanılıb. Yolun eni orta hesabla 8 metrdən 13 metrə qədər genişləndirilib. Yolun 4 min metrinə “Azəryoltikinti” ASC, 3500 metrinə isə daxili imkanlar hesabına asfalt örtüyü döşənib.

Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün səkilər salınıb, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağac və gül kolları əkilib. Təhlükəsizlik məqsədilə istinad divarları, hasarlar yenidən tikilərək aqlay daşlarla üzlənib.

Ardı Səh. 4

# İlham Əliyev: "Keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir"

*"Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı"*





Əvvəli Səh. 3

Küçədə yerləşən obyektlər təmir olunub, yolboyu işıqlandırma sistemi yenidən qurulub. Bu yolda Sumqayıt şəhərində ilk dəfə olaraq, velosiped sürmək üçün xüsusi hərəkət zolağı salınıb. Sahil küçəsində aparılan yenidənqurma işləri həm avtomobillərin rahat hərəkətini, həm də piyadaların təhlükəsiz gediş-gəlişini təmin edəcək.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkında yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı elektromobillə parkın ərazisini gəzdi. Məlumat verildi ki, son dövrlərdə Sumqayıtda əsaslı təmir olunaraq yenidən qurulan istirahət məkanlarından biri də Heydər Əliyev parkıdır. Parkın ümumi sahəsi 8 hektardır. Bu park 1995-1996-cı illərdə salınıb. Ötən ildən başlayan əsaslı təmir və yenidənqurma işlərindən sonra parkın ərazisi genişləndirilərək 15 min kvadratmetrə çatdırılıb. Görülən işlər çərçivəsində parkın girişi və saat qülləsi yenidən qurulub.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səid Rüstəmov adına Sumqayıt şəhər 3 saylı Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev məktəblə tanış oldu. Bildirildi ki, məktəb əvvəllər doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində və əlavə tikilmiş qeyri-yaşayış sahəsində yerləşirdi. Məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib. Yeni binanın inşasına keçən ilin noyabrında başlanılıb. Tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb. Binanın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Ümumi sahəsi 2950 kvadratmetr olan bina üçmərtəbəlidir. Buradakı 27 sinif otağının hamısı müasir avadanlıqla, tələim-tədris ləvazimatları ilə təchiz olunub. Yüz iyirmi yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və emalatxanalarda dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Hazırda Uşaq İncəsənət Məktəbində 730 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 217 müəllim məşğuldur. Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi. Sonra xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Şahmat Məktəbinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Şahmat Məktəbinin binasının rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Prezidentinə məlumat verildi ki, tikintisinə ötən ilin dekabrında başlanılan ikimərtəbəli binanın sahəsi min kvadratmetrdir. Prezident İlham Əliyev Şahmat Məktəbində yaradılan şəraitlə tanış oldu. Uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələrini təmin etmək üçün məktəbdə hər cür şərait yaradılıb. Burada dərslərin yüksək səviyyədə keçirilməsinə imkan verən əsas yarış zalı, altı tədris sinfi, müəllimlər otağı və xidməti otaqlar var. Dövlətimizin başçısı burada bu məktəbin yetirmələri olan Azərbaycanın qadınlardan ibarət milli komandasının üzvləri Zeynəb və Türkan Məmmədyarova bacıları ilə görüşdü. Azərbaycan Prezidenti balaca şahmatçılara da uğurlar arzuladı. Sonda xatirə şəkli çəkdirildi. Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu. Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü ucaldılıb. Foyedə, həmçinin ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə gənclərə göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.

Məlumat verildi ki, Heydər Əliyev parkında inşa olunan Mərkəzin binasının tikintisinə ötən ilin noyabrında başlanılıb. Üç mərtəbədən və mansarddan ibarət olan binanın ümumi sahəsi 5 min kvadratmetrdir. Mərkəzdə Ulu Öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə, o cümlədən Sumqayıtda müxtəlif obyektlərin açılışında iştirakının, ictimaiyyətin nümayəndələri ilə görüşlərinin əks olunduğu fotolar da böyük maraq doğurur. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 420 yerlik böyük konfrans zalı yaradılıb. Mərkəzdə kompyuter və digər ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar var. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan mərkəzdə sərgi zalı, xalçaçılıq dərnəyi, 40 nəfərlik iclas zalı, smart sinif, rəsm və foto studiyaları, elektron kitabxana, kompyuter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Sumqayıtdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə müvafiq şərait yaradılıb. Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Mərkəzin iclas zalında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında qeyd etdi ki, Sumqayıtın inkişafı daim diqqət mərkəzindədir:

"Biz bu gün Sumqayıtda bir çox gözəl obyektlərin açılışını qeyd edirik. Onların arasında əlbəttə ki, öz əzəməti, möhtəşəmliyi ilə seçilən Heydər Əliyev Mərkəzidir. Bu Mərkəz həm memarlıq, həm də funksionallığı baxımından çox gözəl abidədir, Ulu Öndərin adına yaraşan bir Mərkəzdir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir. Məhz onun rəhbərliyi ilə Azərbaycan inamla müstəqillik həyatına qədəm qoyub. Əgər 1991-ci ildə Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Azərbaycan problemlərlə üzləşməzdi, heç vaxt bizdə vətəndaş müharibəsi olmazdı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bizim xoşbəxtliyimiz isə ondan ibarətdir ki, 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ondan sonrakı müstəqillik dövrü sabitlik, tərəqqi və inkişaf dövrüdür. O ağır illərdə Azərbaycanda aparılan islahatlar, təhlükəsizliyin təmin edilməsi, neft kontraktının imzalanması, dövlətçiliyin möhkəmləndirilməsi, yeni Konstitusiyanın qəbulu ölkəmizin gələcək inkişafını müəyyən etmişdir. O vaxt ölkəmizin gələcək inkişafı ilə bağlı strateji seçim edilmişdir ki, Azərbaycan dövləti müstəqil həyatını qoruyacaq, ölkədə Azərbaycançılıq məfkurəsi təmin ediləcək, Azərbaycan öz beynəlxalq əlaqələrini qarşılıqlı hörmət əsasında quracaq, dərin iqtisadi-sosial islahatlar həyata keçiriləcək və Azərbaycan xarici investorlar üçün açıq qapılar siyasəti aparacaq. Bu strateji seçim özünü doğrultdu. Biz bu gün bunu bir daha əyani şəkildə görürük. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Bizimlə hesablaşırlar, bizim fikrimiz, rəyimiz nəinki regional müstəvidə, dünya miqyasında böyük önəm daşıyır.

Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin 23 ili inkişaf, tərəqqi və dirçəliş illəri olmuşdur. 1991-ci ildə Azərbaycan müstəqilliyə qovuşanda digər müttəfiq respublikalar da müstəqillik əldə etmişdi və ilk iki il xalqımız üçün, dövlətimiz üçün çox ağır, faciəvi illər olmuşdur. O vaxt hakimiyyəti zəbt edən antimilli qüvvələr ölkəmizi faktiki olaraq dağıdırdılar və Azərbaycan xalqı böyük əziyyət içində, narahatlıq içində yaşayırdı. Azərbaycan xalqı cəmi bir il AXC-Müsavat cütlüyünün hakimiyyətinə dözərək bu mənfur ünsürləri tarixin arxivinə göndərdi. Bu gün Azərbaycanda gedən proseslər, ölkəmizin inkişafı və dünən keçirilmiş referendum bir daha xalqımızın iradəsini göstərdi. Bir daha göstərdi ki, Azərbaycan xalqı aparılan siyasətə öz dəstəyini verir. Bir daha onu göstərdi ki, Azərbaycan xalqı təhlükəsizliyi, sabitliyi, inkişafı, ləyaqəti və müstəqilliyi seçir.

Dünən keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir. Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimizin təməlində Azərbaycan xalqının maraqları, milli dəyərlər durur. Bu gün istənilən beynəlxalq forumda Azərbaycan öz sözünü deyir, öz yolu ilə gedir, müstəqillik, ləyaqət yolu ilə gedir, heç kimin qarşısında gözükölgəli deyil, heç kimin diktəsi ilə oturub-duran deyil. Bu siyasət xalq tərəfindən dəstəklənir, bəyənilir və beynəlxalq aləmdə bizə çox böyük şöhrət qazandırıb.

Dünən keçirilən referendum ölkəmizin gələcək inkişafını müəyyən edir. Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə "hə" deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm."

Daha sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, İqtisadiyyat naziri Şahin Mustafayev, Azərikimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Muxtar Babayev, "SOCAR Polimer" MMC-nin direktoru Fərid Cəfərov və "SOCAR Karbamid" zavodunun direktoru Xəyal Cəfərov çıxış edərək diqqətə çatdırıblar ki, dünyada mürəkkəb siyasi və iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadi strategiyası çərçivəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş sistemli tədbirlər, aparılan islahatlar ölkənin dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət kəsb edir. Bu iqtisadi strategiyanın əsas istiqamətlərindən biri rəqabətqabiliyyətli qeyri-neft sənayesinin inkişaf etdirilməsidir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmizdə ciddi sənaye potensialı formalaşdırılıb, Bakı ilə yanaşı, Sumqayıt, Gəncə və Mingəçevir də sənaye mərkəzlərinə çevrilib.

# Prezident İlham Əliyev "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub

***Sentyabrın 27-də Bakı Ekspo Mərkəzində "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sərgi ilə tanış olub. Müdafiə sənayesi naziri Yavər Camalov və müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 34 ölkəsini təmsil edən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti iştirak edir. İştirakçıların coğrafiyası Latviya, Monteneqro, Xorvatiya, Çex Respublikası və Estoniya kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.***







Dövlətimizin başçısı Azərbaycan pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Bu sərgidə milli müdafiə sənayesinin məmulatlarının nümayiş etdirilməsi bir daha təsdiqləyir ki, Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işlərinin aparılması, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqların alınıb quraşdırılması artıq öz bəhrəsini verir. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır.

İkinci dəfə keçirilən sərgidə Türkiyə Respublikası 42 şirkətlə təmsil olunur. Türkiyənin 28 illik təcrübəyə malik olan "Roketsan" şirkəti budəfəki sərgiyə öz məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir. "Aselsan" şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.

Ukrayna ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisində 7 şirkətlə təmsil olunur. Bu şirkətlər hərbi sənaye kompleksinin müxtəlif məhsullarını qonaqlara təqdim edirlər.

Serbiya da sərginin maraqla qarşılanan iştirakçıları arasındadır. Bu ölkədən olan "Yugoimport" şirkəti sistem inteqratoru kimi kompleks döyüş sistemlərinin işlənib hazırlanması və istehsalı üzrə ixtisaslaşıb. Azərbaycanda və Kanadada nümayəndəlikləri olan "Azcan" şirkəti beynəlxalq müştərilər şəbəkəsi üçün təhlükəsizliyin təmin olunması ilə bağlı imkanlar təklif edir. Şirkətin məhsulları mülki, xüsusi və hərbi təyinatlı avtomobillərdən, eləcə də güllə keçirməyən jiletlərdən, mühafizə vasitələri və hərbi təyinatlı mobil elektron sistemlərdən ibarətdir.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının pavilyonunda da oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlığa malik Pakistan da bu sərgidə hərbi sənaye məhsullarının geniş çeşidi ilə iştirak edir. Bu ölkədə istehsal olunan hərbi məhsullar hərbi sənaye kopmpleksinin bütün istiqamətlərini əhatə edir. Hərbi sənayesi ilə diqqət çəkən Belarus Respublikası da ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları arasındadır. Sərgiyə 11 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı, ağır hərbi texnika da nümayiş etdirir. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Azərbaycan hərbi sənayesinin məhsulları sərgidə böyük maraq doğurub. Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan universal "Gürzə" avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, "Tufan" və "İldırım" ağır hərbi texnikası sərginin maraq doğuran məhsulları sırasındadır. Azərbaycan Tarix Muzeyinin ekspoziyasında isə tariximizin hərbi keçmişi dolğun şəkildə əksini tapıb. Burada Azərbaycan hərb tarixinin müxtəlif mərhələlərini əks etdirən silah növləri nümayiş etdirilir. Dünyada hərbi sənaye kompleksinin inkişafı ilə diqqət çəkən ölkələrdən biri olan İsrail Bakıda keçirilən sərgiyə 13 şirkətlə qatılıb. Bu şirkətlər hava gəmiləri, zirehli texnika, donanma platformaları, havada və kosmosda ən son texnikanın, kiber texnologiyaların tətbiqi ilə yanaşı, müasir müdafiə sistemlərinin işlənib hazırlanması və istehsalını, o cümlədən hərbi donanma və kosmik sistemlər üçün innovativ həll variantlarını təklif edirlər.

İkinci Azərbaycan Beynəlxalq müdafiə sərgisinə 12 şirkətlə qatılan Çex Respublikası təqdim etdiyi məhsullar baxımından maraqla qarşılanır. Sərgidə iştirak edən Türkiyənin "Gülhan Dearsan" şirkəti hərbi donanma gəmilərinin layihələndirilməsi və tikintisi, o cümlədən hərbi silah sistemləri və kompleks ticarət gəmilərinin inteqrasiyası sahəsində ixtisaslaşıb. Rusiya Federasiyası sərgidə maraq doğuran ölkələr sırasındadır. Dünyada nüfuzlu hərbi sənaye kompleksinə malik olan Rusiyanı sərgidə 23 şirkət təmsil edir. Bu ölkənin "Rosoboronexport" şirkəti qlobal silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 85 faizdən çoxunu əhatə edir. Fransa Respublikasını təmsil edən "DCNS Group" dəniz mühafizəsi üzrə dünya lideri olmaqla enerji sektorunda innovatordur. Şirkət əsasən havadan müdafiə dəsti də daxil olmaqla bir çox özünümüdafiə sistemləri ilə bağlı məhsulları nümayiş etdirir. Çinin "CETS International" şirkəti elektron informasiya sahəsi üçün innovativ və xüsusi həll variantları ilə sərgi ziyarətçilərinin qarşısına çıxıb.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında açıq havada nümayiş etdirilən hərbi məhsullara da baxdı. Azərbaycan hərbi sənaye kompleksinin məhsulları burada da qonaqlara təqdim olunur. Bildirildi ki, "Matador" və "Marauder" tipli zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi sərgidə yenə də böyük maraqla qarşılanır. Bundan əlavə, Rusiya və Belarus istehsalı olan ağır hərbi texnikalar sərginin əhəmiyyətini daha da artırır. Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün də əla platformaya çevrilib.

## Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə bundan sonra da möhkəmlənəcək

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin müdafiə, mədəniyyət və turizm nazirlərinin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Türkiyə Respublikasının müdafiə naziri Fikri Işıqın, mədəniyyət və turizm naziri Nabi Avcının başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, müdafiə naziri Fikri Işıq, mədəniyyət və turizm naziri Nabi Avcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında müdafiə, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, "ADEX-2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətindən danışıldı. Söhbət zamanı, ölkələrimiz arasında mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Son vaxtlar turizm sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə turistlərin sayının artdığı qeyd edildi, Türkiyənin bu sahədə zəngin təcrübəyə malik olmasının əhəmiyyəti diqqətə çatdırıldı. Dünya Turizm Günündə Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcının ölkəmizə səfərinin önəmi vurğulandı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və şəhər avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

# "Terrorizmə qarşı mübarizə qlobal xarakter daşımalıdır"

*Prezident İlham Əliyev MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edib*

***Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, Terrorizmə qarşı mübarizə qlobal xarakter daşımalıdır:***

-Sabah Bakıda təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının iclası işə başlayır. Mən qonaqlarımızı - dost dövlətlərin təhlükəsizlik orqanlarının rəhbərlərini salamlayıram, sizə yaxşı və səmərəli iş arzu edirəm. Əminəm ki, sabahkı iclas ölkələrimizin təhlükəsizlik orqanları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi işinə xidmət edəcək.

Mənə məlumdur ki, sizin gündəliyiniz yetərincə genişdir, olduqca çoxsaylı məsələlər müzakirə olunacaq. Təbii ki, bütün bu məsələlər əməkdaşlıq, qarşılıqlı anlaşma və dəstək ruhunda müzakirə olunacaq. Biz Şuranın fəaliyyətinə böyük əhəmiyyət veririk, hesab edirik ki, o çox səmərəli, gərəklidir, üzv ölkələr arasında əməkdaşlığın, habelə ölkələrimizdə təhlükəsizlik sisteminin möhkəmlənməsinə kömək edir. Azərbaycan Şuranın üzvləri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda fəal əməkdaşlıq edir. Biz öz regionumuzda və keçmiş SSRİ məkanında təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəmizi verməyə çalışırıq.

Bu gün dünyada mövcud vəziyyət hamımıza yaxşı məlumdur. Təəssüf ki, təhlükələr get-gedə artır. Mövcud ənənəvi təhdidlərlə yanaşı, yeni gərginlik ocaqları, münaqişələr, praktiki olaraq bütün qitələri əhatə etmiş terror xarakterli təhdidlər yaranır. Mən yüksək beynəlxalq tribunalardan da dəfələrlə demişəm və həyat da bunu təsdiq edir, bu cür düşünən təkcə mən deyiləm ki, heç bir ölkənin təhlükəsizliyini təkbaşına təmin etmək mümkün deyil. Əməkdaşlıq, qarşılıqlı fəaliyyət olmadan, terrorizmə, radikalizmə, ekstremizmə qarşı mübarizədə səyləri birləşdirmədən təhlükəsizliyi təmin etmək çox çətindir. Həmçinin düşünürəm ki, artıq indi dünyada bu cür tezisləri dəstəkləyənlər getdikcə çoxalır ki, terrorçuların yaxşısı olmur, terrorçuları sənin ölkənə qarşı və ya sənin rəqibin, yaxud düşmənin olan ölkəyə qarşı çıxış edənlərə bölmək olmaz. Terrorizmə qarşı mübarizə qlobal xarakter daşımalıdır. Bu gün təəssüf ki, həm bizim regionda, həm MDB məkanında, həm dünyada, həm Avropada müşahidə etdiyimiz hadisələr belə bir tezisi təsdiq edir ki, təhdidlərin qarşısını almaq üçün bütün ölkələrin xüsusi xidmətləri arasında səylərin birləşdirilməsi, informasiya mübadiləsi, səmimi əməkdaşlıq zəruridir.

Sizin başçılıq etdiyiniz orqanların fəaliyyəti spesifikdir. O, cəmiyyətin üzvlərinin böyük əksəriyyətinin gözünə görünmür. Sizin fəaliyyətinizi mövcud şəraitdə qiymətləndirmək lazımdır. Əgər hər yerdə sakitlikdirsə, təhlükə yoxdursa, deməli, təhlükəsizlik orqanları yaxşı işləyir. Sizin peşə uğurlarınız çox vaxt ictimai diqqətdən kənarda qalır. Çünki sizin fəaliyyətiniz spesifikdir. Son illərdə ölkələrimizin təhlükəsizlik orqanlarının qazandığı uğurlar bəzən məlum olmur. Lakin vətəndaşlar bir şeyi bilirlər ki, təhlükəsizlik orqanları öz işini hər gün yerinə yetirir, istirahət günləri olmadan qanunun və təhlükəsizliyin keşiyində dayanırlar. Buna görə də əlbəttə ki, bir daha demək istəyirəm, artıq böyük tarixə malik olan Şura, - sabah Şuranın 41-ci iclası olacaq, siz dəfələrlə görüşmüsünüz, - özünün səmərəliliyini artıq sübut edib. Xüsusən indiki şəraitdə, səylərin daha artıq birləşdirilməsi, fəaliyyətin əlaqələndirilməsi və əlbəttə, vaxtında informasiya mübadiləsinin zəruri olduğu şəraitdə bu, çox vacibdir. Potensial təhdidlər barədə informasiya mübadiləsinə gəldikdə isə burada söhbət nəinki günlərdən, hətta saatlardan gedir.



Buna görə də biz çalışırıq və bundan sonra da çalışacağıq ki, tərəfdaş ölkələrlə qarşılıqlı fəaliyyəti gücləndirək. Biz hamımız mürəkkəb regionda yaşayırıq, dünya dəyişir, təhlükələr artır. Terrorçu təşkilatlar olduqca təhlükəli silah növlərinə, texnologiyalara yol tapırlar və bütün bunlar, əlbəttə ki, böyük təhlükə doğurur. Yaxın Şərqdə praktiki olaraq nəzarətdən çıxmış hadisələr, Avropa paytaxtlarında, Yer kürəsinin digər regionlarında terror hücumları, gərginliyin artması - bütün bunlar günümüzün reallıqlarıdır. Biz real aləmdə yaşayırıq və təhlükələrə adekvat reaksiya verməli, onları qabaqlamalıyıq. Buna görə də hər bir ölkə, əlbəttə ki, xüsusi xidmətlərin fəaliyyətindən ötrü zəruri şərait yaratmaq üçün öz potensialından maksimum istifadə etməyə çalışır. Biz Azərbaycanda bu sahəyə çox böyük diqqət yetiririk. Bizim xüsusi xidmətlərimiz müasir texnika ilə, avadanlıqla təchiz olunub, onların peşəkarlığı və səmərəliliyi artır. Əlbəttə, öz tərəfimizdən biz həmişə tərəfdaş ölkələrlə sıx əlaqədə işləyəcəyik. Bu ölkələrlə bizi vahid dövlətin tərkibində birgə yaşadığımız uzun tarixi dövr birləşdirir və son 25 ildə artıq müstəqil ölkələr kimi öz münasibətlərimizi tarixi dostluq və qarşılıqlı dəstək ənənələri əsasında qururuq. Buna görə bir daha demək istəyirəm, biz sabahkı iclasa xüsusi əhəmiyyət veririk. Mən şadam ki, həmin iclas bizim ölkəmizdə keçiriləcək. Azərbaycan müstəqillik illərində, son illərdə istənilən təhdidlərə davam gətirmək qabiliyyətini dəfələrlə sübut edib.

Toxunmaq istədiyim daha bir mühüm mövzu barədə mən bu yaxınlarda MDB dövlət başçıları şurasının Bişkekdə keçirilmiş Sammitində də danışmışam. Mən çıxışımda terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsi məsələsinə də toxunmuşdum və bildirmişdim ki, MDB ölkələrini birləşdirən təkcə ümumi tarix deyil, həm də əməkdaşlığı möhkəmlətmək zərurətini hamının başa düşməsidir. Mənim fikrimcə, bu gün MDB ölkələri müxtəlif tarixə, mədəniyyətə, ənənələrə, dinlərə mənsub olan xalqların qarşılıqlı fəaliyyətinə dair çox mühüm təcrübəni bölüşə bilər. Bu, bizim böyük sərvətimizdir. Əvvəlki illərdə biz belə məsələləri bəlkə də bu dərəcədə kəskin qəbul etmirdik. Bizə elə gəlirdi ki, bu elə belə də olmalıdır. Doğrudan da belə olmalıdır. Lakin heç də hər yerdə belə deyil. Təəssüf ki, son vaxtlar konfessiyalararası, etnoslararası zəmində gərginlik artır, qarşıdurmalar çoxalır. Bu, bütün dünya və bizim ölkələr üçün böyük təhlükədir. Ölkələrimizin hamısı çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrin hamısında sülh və bizim ərazidə yaşayan bütün xalqlar arasında qarşılıqlı anlaşma var. Hesab edirəm ki, bu, xalqlarımızın və əlbəttə, bu istiqamətdə düzgün siyasət yürüdən rəhbərliyin çox böyük xidmətidir. Biz öz nümunəmizlə həm siyasi sahədə, həm də iqtisadi, sosial, mədəni sahələrdə, təhlükəsizlik sahəsində əməkdaşlıq nümayiş etdiririk. Biz göstəririk ki, bəzi dairələrin buna necə yanaşmalarından asılı olmayaraq multikulturalizm prinsipləri yaşayır və qalib gəlir.

Deməliyəm ki, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Biz BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu keçirmişik, iki gündən sonra V Beynəlxalq Bakı Humanitar Forumu keçiriləcək. Əvvəlki illərdə biz dinlərarası dialoqla bağlı çoxlu tədbirlər keçirmişik və bu gün bizim topladığımız təcrübə çox ölkələr üçün böyük maraq doğurur. Eyni sözləri sizin təmsil etdiyiniz ölkələr barədə də deyə bilərəm. Çünki mən təbii ki, bizim regionda, postsovet məkanında və bütövlükdə dünyada baş verən hadisələri izləyirəm və müsbət dinamika müşahidə edirəm.

Beləliklə, bütün bu məsələlər qarşılıqlı əlaqəlidir. Təhsilin səviyyəsi ilə bağlı məsələlər təhlükəsizliklə birbaşa bağlıdır. Çünki beynəlin "yuyulması", radikal ideologiya o yerdə özünə zəmin tapır ki, orada təhsilə lazımınca əhəmiyyət verilmir. Bizə sovet keçmişindən miras qalmış üstünlüklərdən biri məhz təhsil və savaddır. Bizim ölkələrimizdə savadlılıq mütləq həddədir. Biz bu nailiyyəti qoruyub saxlayırıq və saxlamalıyıq. Ölkələrimizin vətəndaşları arasında, xüsusən gənclər arasında müxtəlif səviyyələrdə mövcud olan əlaqələr də təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm amildir. Ona görə ki, gənclər bir-birini tanıyacaq, bir-birinə qonaq gedəcək, ünsiyyət saxlayacaq, dostluq edəcək. Əlbəttə ki, bir-birini dost və tərəfdaş kimi qəbul edəcəklər. Odur ki, təhlükəsizlik orqanlarının fəaliyyəti dövlətin siyasətindən ayrı mümkün deyil. Biz Azərbaycanda məhz əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, qarşılıqlı həmrəyliyə, çoxkonfessiyalı dünyaya yönəlmiş ardıcıl siyasət yürüdürük və çoxmillətli dövlət olaraq öz ölkəmizin bütün vətəndaşları ilə fəxr edirik. Düşünürəm ki, bu, təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi, sosial məsələlərin həlli və ölkənin inkişafı baxımından Azərbaycanın uğurlu inkişafının başlıca təməlidir.

Buna görə də sabah sizi böyük iş gözləyir. Bununla bağlı bəzi mülahizələrimi sizə çatdırmaq, sizə uğurlar arzulamaq və təşəkkür etmək istəyirdim. Siz mühüm məsələlərin müzakirəsi üçün Bakıya gəlmisiniz. Güman edirəm ki, Azərbaycanın reallıqları ilə bir daha tanış olmaq, sabahkı günü həm işdə keçirmək, həm də yaxşı istirahət etmək imkanınız olacaq. Bir daha xoş gəlmisiniz.

X X X

İclasın Bakıda keçirilməsinə yaradılan imkana görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının sədri, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr BORTNİKOV dedi:

-Biz artıq birinci dəfə deyil ki, bu tədbiri dost Azərbaycanın ərazisində keçiririk. Bizi həmişə çox qonaqpərvərliklə, mehribanlıqla qəbul edirlər. Demək istəyirəm ki, hər dəfə Azərbaycana gələndə sözün yaxşı mənasında burada baş verənlərə heyrətlənməyə bilmirik. Azərbaycan inkişaf edir, böyüyür. Bu, dostlar, yoldaşlar kimi həm gözümüzü oxşayır, həm də qəlbimizi sevindirir.

A.Bortnikov Azərbaycan Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı referendumun uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edərək ümumxalq səsvermənin qələbə ilə başa çatmasını qeyd etdi. Şuranın sədri vurğuladı: "Hesab edirəm ki, bu, həqiqətən belədir. Həm Sizə, həm də Azərbaycan xalqına uğurlar və firavanlıq arzu etmək istəyirəm. Bu, çox vacibdir. Hesab edirəm ki, vətəndaşlar öz iradəsini bu şəkildə ifadə etməklə ölkə rəhbərliyini dəstəkləyir və gələcəyə yol seçir".

A.Bortnikov Birlik ölkələrinin sərhədləri ətrafında yaranmış mürəkkəb vəziyyətə toxunaraq xüsusi qeyd etdi ki, təhlükələr ilk növbədə terrorizmlə bağlıdır. O bildirib ki, dünya birliyinin səylərinə baxmayaraq vəziyyət dəyişmir və mürəkkəb olaraq qalmaqda davam edir. Şuranın sədri qabaqlayıcı iş aparmağın, informasiya mübadiləsinin, təhdidlərə vaxtında reaksiya verilməsinin zəruriliyini vurğulayaraq bildirdi ki, sabahkı iclasda müzakirə ediləcək əsas problem bizim ölkələrə qarşı kənardan yaranan təhlükələrin qiymətləndirilməsi və onlara qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması olacaq. O deyib:

-Siz son zamanlar bu və ya digər şəkildə dünyada özünü qabarıq büruzə verən və bütövlükdə vəziyyətə təsir göstərən konfessiyalararası münasibətlərdən danışdınız. Düşmənlərimiz bundan fəal istifadə edirlər. Buna görə də biz baş verən prosesləri fəal izləməyə diqqət yetirəcəyik, çünki özlüyündə konfessiyalararası münasibətlərin xarakteri son nəticədə cəmiyyətdə vəziyyətin sağlamlaşmasına təsir göstərir.

A.Bortnikov radikalizmə, mütəşəkkil cinayətkarlığa, ekstremizmə qarşı mübarizənin də vacibliyini qeyd edərək vurğuladı ki, MDB-nin üzvü olan ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanlarının əməkdaşlığı təhdidlərə qarşı səmərəli mübarizə aparmağa və konkret həllər hazırlamağa kömək edir. O dedi:

-Güman edirəm ki, Təhlükəsizlik Orqanları Rəhbərləri Şurasında yaranmış və mövcud münasibətlərin xarakteri bizim sələflərimiz tərəfindən əsası qoyulmuş ənənələri dəstəkləməyə kömək edir, toplanmış təcrübəni reallaşdırmağa, xüsusi xidmətlərdən hər birinin malik olduğu bilik və vərdişləri təkmilləşdirməyə çalışmaq imkanı verir. A.Bortnikov vurğuladı ki, MDB ölkələrinin təhlükəsizlik və xüsusi xidmət orqanları Birlik məkanında sülh və əmin-amanlıq üçün ümumi səylər göstərəcək, bir-birini hərtərəfli dəstəkləyəcəklər. O, ümidvar olduğunu diqqətə çatdırdı ki, Bakıda keçirilən iclas perspektivdə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından faydalı və səmərəli olacaq.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

## Mərkəzi Seçki Komissiyasının sədri referendumun nəticələrini açıqlayıb



Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ölkəmizdə referendumun keçirildiyi bütün məntəqələrdən daxil olan məlumatlarla bağlı sentyabrın 27-də mətbuat konfransı keçirib. Məzahir Pənahov bildirib ki, referendum 125 seçki dairəsi üzrə 5627 seçki məntəqəsində keçirilib və nəticələrin hamısı bu gün səhər Mərkəzi Seçki Komissiyasına daxil olub. Diqqətə çatdırılıb ki, ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfər olub. Səsvermədə seçicilərin iştirak faizi 69,7 faiz təşkil edib.



Sonra MSK sədri daxil olan məlumatlara əsasən ilkin rəqəmləri diqqətə çatdırıb.

Məzahir Pənahov bildirib ki, Mərkəzi Seçki Komissiyası artıq rəsmi protokolların qəbul edilməsi ilə məşğul olacaq. Seçki Məcəlləsinin tələbinə görə, iki gün müddətində bütün dairə seçki komissiyalarının protokolları Mərkəzi Seçki Komissiyasına çatdırılmalıdır. Ondan sonra dairə seçki komissiyalarının protokolları əsasında ilkin nəticələr MSK-nın saytında yerləşdiriləcək. Həmin məlumatlar artıq protokollar əsasında olan ilkin nəticələr olacaq. Sonra bütün sənədlər diqqətlə araşdırılacaq, əgər hər hansı müraciət daxil olarsa, o müraciətlər araşdırılacaq, onlara uyğun qərarlar çıxarılacaq. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq ən geci 25 gün müddətində Mərkəzi Seçki Komissiyası bu proseslərə yekun vuracaq. Əgər MSK-ya heç bir müraciət daxil olmasa, dairə seçki komissiyalarından daxil olmuş sənədlər araşdırılıb başa çatdırılandan sonra Komissiya nəticələrin rəsmi təsdiq olunması ilə bağlı iclasın nə vaxt çağırılması barədə qərar qəbul edəcək. Ümumxalq səsverməsinin çox yüksək səviyyədə keçirildiyini bir daha vurğulayan M.Pənahov indiyədək MSK-ya hər hansı şikayətin daxil olmadığını diqqətə çatdırıb.

## Avropa İttifaqının Regional Komitəsinin üzvlərindən ibarət müşahidə qrupu referendumla bağlı bəyanat yayıb



Avropa İttifaqının (Aİ) Regional Komitəsinin üzvlərindən ibarət müşahidə qrupu Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi (referendum) ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, qrupun rəhbəri, Finlandiyadan olan Paulina Haijanen sentyabrın 26-da Azərbaycanda keçirilən referendumda müşahidə apardıqlarını deyib. O bildirib ki, müşahidə qrupu səfər öncəsi referenduma çıxarılan Konstitusiya dəyişikliklərinin məzmununu araşdırıb, sentyabrın 26-da ümumxalq səsverməsi günü 2 seçki dairəsinin 10 seçki məntəqəsində səsvermə prosesinin müşahidəsini aparıb. Qrup apardığı araşdırmalar və müşahidələr əsasında referendumun keçirilməsinin suveren Azərbaycan dövlətinin səlahiyyətlərinə aid və bu barədə qərarın verilməsinin milli qanunvericiliyə uyğun olduğu qənaətinə gəlib. Həmçinin referenduma çıxarılan məsələlər ölkədə idarəetmə sisteminin gücləndirilməsi, insan hüquqlarının müdafiəsinin rəsmiləşdirilməsinə xidmət edir. P.Haijanen deyib: "Qrupun üzvləri olduqları məntəqələrdə çoxsaylı müşahidəçilərin səsvermə prosesinin gedişini müşahidə etdiklərinin şahidi olublar. Səsvermə prosesi texniki və təşkilati baxımdan çox yaxşı təşkil edilmişdi. Məntəqələrdə seçici fəallığı yüksək idi və səsvermə prosesi dinc şəraitdə keçdi. Hər hansı bir zərurət olmadan polisin və ya yerli icra hakimiyyəti orqanının nümayəndələrinin seçki məntəqələrinə daxil olmalarını və səsvermə prosesinə müdaxilə etmələrini müşahidə etmədik. Səs verənlər müstəqil və heç bir kənar müdaxilə olmadan səsvermə prosesində iştirak edərək öz iradələrini ifadə etdilər". Qrupun rəhbəri əlavə edib ki, səsvermə prosesi başa çatdıqdan sonra müşahidə qrupunun üzvləri bir məntəqədə bülletenlərin sayılması prosesini izləyib və digər müşahidəçilərə də bülletenlərin sayılması prosesini izləməyə hər hansı maneçiliyin törədilmədiyinin şahidi olublar. Müşahidə qrupu belə bir qənaətə gəlib ki, sentyabrın 26-da Konstitusiyaya dəyişiklərlə bağlı referendum tam şəffaf şəraitdə keçib. Referendumun nəticələri Azərbaycan xalqının öz iradəsini müstəqil və azad şəkildə ifadə etdiyini əks etdirir.

## AŞPA missiyasının ilkin rəyi: Azərbaycanda ümumxalq səsverməsi yaxşı təşkil olunub və şəffaf keçib



Avropa Şurası Parlament Assambleyasının sentyabrın 26-da Azərbaycanda keçirilmiş referendumla bağlı qiymətləndirmə missiyasının rəhbəri Aleksandr Nikoloski heyətin ilkin rəyini açıqlayarkən deyib: "Biz Azərbaycan xalqını sakit keçən səsvermə günü ilə bağlı təbrik etmək istəyirik. AŞPA nümayəndə heyəti belə nəticəyə gəlib ki, referendum milli qanunvericiliyə uyğun keçirilib. Azərbaycan Konstitusiyası qanuni və legitim hesab olunur. Səsvermə prosesi yaxşı təşkil olunub, şəffaf, səmərəli və sakit keçib. Səslərin sayılması zamanı ciddi pozuntular qeydə alınmayıb. Biz Azərbaycan xalqının iradəsinə hörmətlə yanaşırıq. Referendumun nəticələri Azərbaycan xalqının iradəsini əks etdirir".

## Türkiyə KİV-ləri Azərbaycanda keçirilmiş referendum və onun nəticələri barədə məlumat yayıb




Türkiyə KİV-ləri Azərbaycan Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi (referendum) ilə əlaqədar geniş məlumat yayıb.

Müxtəlif dillərdə yayılmış xəbərlərdə Prezident İlham Əliyev və ailə üzvlərinin səsvermədə iştirakı, Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin mahiyyəti, səsvermənin azad və şəffaf keçirilməsi, xarici müşahidəçilərin referendumla bağlı ifadə etdikləri müsbət fikirlər əks olunub. www.aa.com.tr, www.iha.com.tr, www.timeturk.com, www.haberturk.com, www.yenisafak.com,www.milligazete.com.tr, www.ntv.com.tr, www.turkiyegazetesi.com.tr və s. media qurumları tərəfindən oxuculara müxtəlif dillərdə təqdim olunan xəbərlərdə referendumun yüksək səviyyədə təşkil edilməsi, seçici sayı, seçici fəallığı, ümumxalq səsverməsinin nəticələri və s. məqamlara dair məsələlər diqqətdə olub. Türkiyə televiziya kanalları ilə bərabər bəzi xəbər portalları da səsvermə prosesindən videomateriallar yayıblar. Diqqətə çatdırılıb ki, referendum baş tutub və Azərbaycan xalqı Konstitusiyaya təklif olunan əlavə və dəyişiklikləri dəstəkləyib.

## Markov: Referendumun nəticəsi ölkə əhalisinin Prezidentin siyasətinə dəstək verdiyini təsdiq edir



Azərbaycan Konstitusiyasına dəyişikliklərlə bağlı referendumun nəticələri ölkə əhalisinin Prezident İlham Əliyevin siyasətinə böyük dəstək verdiyini təsdiq edir. Bunu Trend-ə Rusiya Prezidentinin səlahiyyətli nümayəndəsi, RF-nin İctimai Palatasının üzvü, politoloq Sergey Markov deyib. Onun sözlərinə görə, insanlar Prezidentə inanırlar ki, təklif edilən dəyişikliklər düzgündür və Azərbaycanın rifahına xidmət edəcək. Bu, referendumun belə aşkar uğurunun əsas səbəbidir. S.Markov qeyd edib ki, konstitusiya dəyişiklikləri üzrə təklif siyasi sistemin davamlılığını artırmaq üçün verilib.

## Villyam Rasimora: Müşahidə apardığımız bütün məntəqələrdə səsvermənin ədalətli və düzgün keçirildiyinin şahidi olduq

Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzi və Polis üzrə Araşdırma Mərkəzinin üzvlərindən ibarət müşahidə qrupu Azərbaycanda sentyabrın 26-da keçirilən referendumla bağlı birgə bəyanatla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzinin vitse-prezidenti Villyam Rasimora ölkəmizdə keçirilən ümumxalq səsverməsini Azərbaycanda siyasi sabitliyin zəmanəti kimi dəyərləndirib. Diqqətə çatdırıb ki, Konstitusiyaya ediləcək əlavə və dəyişikliklər vətəndaş azadlıqlarını gücləndirəcək və demokratiyanı müdafiə edəcək. Bu yeni mərhələdə ölkədə fərqli institutların sabitliyi təmin ediləcək. V.Rasimora vurğulayıb ki, Avropa İttifaqının tərəfdaşı olan bir ölkədə siyasi sabitliyin hökm sürməsi və vətəndaş azadlıqlarının qorunması beynəlxalq əlaqələrin inkişafının mühüm elementidir. O deyib: "Müşahidə apardığımız bütün məntəqələrdə səsvermənin ədalətli və düzgün keçirildiyinin şahidi olduq. Səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna rast gəlmədik. Hesab edirik ki, referendum Azərbaycan vətəndaşlarının gözləntilərini doğruldub. Digər tərəfdən, referendum günü ölkədə ümumi vəziyyətin sakit olduğunu müşahidə etdik". Polis üzrə Araşdırma Mərkəzinin sədri Bordo Qilis Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə toxunaraq yüksək təşkilatçılığa görə minnətdarlığını bildirib. O qeyd edib ki, məntəqələrdə sərbəst şəkildə müşahidə aparıblar və səsvermə prosesi ilə bağlı suallarına dolğun cavablar alıblar.



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
28 sentyabr 2016-cı il

# Referendum Aktına xalq "HƏ" dedi

***Həyata keçirilən demokratikləşmə prosesində, xalq-hakimiyyət birliyi əsas aparıcı qüvvə olmaqla, vətəndaş cəmiyyəti quruculuğu prosesinə daima öz müsbət töhfəsini verməkdədir. Respublikamızda qanunvericilik bazasının təkmilləşdirilməsi, icra mexanizmlərinin tənzimlənməsi, çoxpartiyalı sistemin inkişaf etdirilməsi, insanlara sərbəst toplaşmaq azadlıqlarının verilməsi Azərbaycan demokratiyasının davamlı inkişafından xəbər verir. Bu gün müstəqil Azərbaycan öz siyasətini, məhz möhkəm təməllər üzərində qurmuşdur.***



**NƏRİMAN ƏLİYEV,**
**Milli Məclisin deputatı**





İnsan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, vətəndaşlarımızın sosial həyatlarının daha da yaxşılaşdırılması, dövlət idarəçiliyində ən modern siyasi mexanizmlərin həyata keçirilməsi və s. mühüm faktorlar da bu amili özündə ehtiva etməkdədir. Dövlətimizin yürütdüyü siyasətində prioritet məsələ kimi qiymətləndirilən bu məsələ 26 sentyabrda baş tutmuş Referendum Aktı layihəsi çərçivəsində, ümumxalq səsverməsi ilə özünü təsdiqlədi. Belə ki, Prezident İlham Əliyevin Milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə irəli sürdüyü təşəbbüs də Azərbaycan dövlətinin insan hüquq və azadlıqlarının qorunmasına, ölkənin hərtərəfli inkişafın göstərdiyi diqqətin bariz nümunəsidir. Belə ki, sentyabrın 26-da keçirilən səsvermənin yüksək fəallıq şəraitində keçməsi referenduma çıxarılan məsələlərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynadığını, ölkə vətəndaşlarının mütləq əksəriyyətinin Konstitusiyaya təklif olunan əlavələr və dəyişiklikləri dəstəklədiyini nümayiş etdirdi.

## Səsvermə günü xalqın böyük izdihamla seçki məntəqələrinə gedərək, daha güclü Azərbaycana səs vermələri bunun bariz və məntiqi nəticəsidir

Referendum ərəfəsində Yeni Azərbaycan Partiyası tərəfindən yaradılmış "Yeni Azərbaycan" və "Vətəndaş cəmiyyəti" təşviqat qrupları təbliğat kampaniyasının qanunvericiliyə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri gördü. Təşviqat kampaniyası dövründə "Yeni Azərbaycan" və "Vətəndaş cəmiyyəti" təşviqat qrupları Azərbaycanın bütün bölgələrində - şəhər, rayon, qəsəbə və kəndlərində seçicilərlə çoxsaylı görüşlər keçirib, onların maarifləndirilməsi prosesində yaxından iştirak ediblər. Bu görüşlərdə qarşıya qoyulan əsas məqsəd referenduma çıxarılan məsələlərlə bağlı izahat işi aparmaq, seçiciləri maarifləndirmək olub ki, səsvermə günü xalqın böyük izdihamla seçki məntəqələrinə gedərək, daha güclü Azərbaycana səs vermələri bunun bariz məntiqi nəticəsidir.

Diqqətçəkici məqamlardan biri də budur ki, təşviqat qruplarının keçirdikləri yüzlərlə görüşlər nəticəsində Azərbaycan vətəndaşlarına - referenduma çıxarılan məsələlərin mahiyyətini və məzmununu demokratik və plüralizm şəraitində çatdırdı. Vətəndaşlarda müsbət təsir buraxan görüşlər, əsasən, açıq debatlar, diskussiyalar, müzakirələr şəraitində keçirildi, hətta ən kiçik detallara qədər məsələlər insanlarımızın diqqətinə çatdırıldı. Bu, bir daha sübut edir ki, onu maraqlandıran suallara cavabını tapdıqdan sonra referendum günü səsvermədə fəallıq göstərəcək. Əlbəttə ki, burada seçki təcrübəsi də öz rolunu yetərincə təsdiq edir. Bu günə kimi Azərbaycanda 6 prezident, 5 parlament, 4 bələdiyyə və 3 referendum səsverməsi keçirilib. Sonuncu-26 sentyabr referendumuna qədər keçirilən öncəki referendumlarda toplanmış təcrübələr də, əlbəttə ki, burada öz əhəmiyyətli rolunu oynamış oldu. Məhz bu baxımdan, demək olar ki, uğurlu təcrübə və xalqın referenduma olan marağı təşviqat kampaniyasını daha səmərəli şəkildə aparmağa, seçki resurslarından düzgün istifadə etməyə kifayət qədər zəmin yaratmış oldu.

## Səs verən vətəndaş ölkə tarixinin növbəti uğur səhifəsinə səs vermişdir

Onu da qeyd etmək istərdim ki, qarşıdan gələn ayda - oktyabr ayında xalqımız Azərbaycan Respublikasının müstəqilliyinin 25-ci ildönümünü böyük təntənə ilə qeyd edəcək. Müstəqillik dövründə ölkəmiz demokratik və dünyəvi dövlət quruculuğu istiqamətində böyük inkişaf yolu keçib. Qeyd etdiyim kimi, seçki və referendumların təşkili istiqamətində zəngin təcrübənin əldə edilməsi də bu illər ərzində formalaşıb. Ona görə də ölkə Prezidenti İlham Əliyev dövrün tələblərini, mövcud reallıqları və beynəlxalq təcrübəni nəzərə alaraq, konstitusiyaya dəyişikliklərin edilməsi təşəbbüsü ilə çıxış etdi.

Artıq 26 sentyabr günündə səs vermiş vətəndaş ölkə tarixinin növbəti uğur səhifəsinə səs vermişdir desək, bu mühüm hadisədən daha düzgün nəticə hasil edə bilərik. Yəni hər kəsə bəllidir ki, Referendum Aktı çərçivəsində təklif olunan dəyişiklikləri, ilk növbədə, ölkədə aparılan siyasi və iqtisadi islahatların davamı kimi qiymətləndirmək olar.

Biz Referendum Aktı layihəsinə səs verməklə nəyi qazandıq? Bu sualı cavablandırmaqdan ötrü yenidən həmin müddəaları nəzərdən keçirmək lazımdır. Demokratikləşməyə xidmət edən vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması və təminatı baxımından referendumu təhlil etsək, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsində Konstitusiyanın 9-cu maddəsinə təklif edilən variantlar və s. aşağıdakı kimidir: "Azərbaycan Respublikası öz təhlükəsizliyi-

# Referendum Aktına xalq "HƏ" dedi





ni və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir".

Əvvəlki variantdan fərqli olaraq, bu maddədə Azərbaycan Ordusu və başqa silahlı birləşmələrin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibi olduğu elan edilir. İnkişaf etmiş dövlətlərin rastlaşmadığı münaqişəli müharibə şəraitində demokratik quruculuq ideyalarını müdafiə edən və həyata keçirən Azərbaycan dövlətinin Silahlı Qüvvələrinin idarə etməsinin mərkəzləşməsi hazırkı şəraitdə, hesab edirik ki, referendumda müzakirəyə çıxarılmış, yerində olan hüquqi əhəmiyyətli məsələlərdən biridir. Bu konkret dəyişiklik Azərbaycan dövlətinin təhlükəsizliyinin və müdafiəsinin əsaslarının iqtisadi, hüquqi, sosial baxımdan daha da möhkəmləndirilməsinə xidmət edir.





Referendum Aktında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi" (24), "Bərabərlik hüququ" (25) maddələrinin, təklif edilən variantlarına diqqət etsək, demokratik idarəetmə prosesində iştirak etmək üçün vətəndaşlara bərabər hüquqların verilməsi, əqidəyə, siyasi və sosial mənsubiyyətə görə öz fikrini ifadə etmək və idarəetmədə iştirakda bərabərliyin təmin edilməsi ilə bağlı verilən imkanların təsbitini görürük. Bu imkanlar, məhz mövcud maddələrin variantlarından daha dəqiq ifadə edilməklə, vətəndaşlarımızın, eləcə də, müxtəlif dinlərə mənsub olan insanların demokratik cəmiyyətdə birgə dinc yaşamasının daha dəqiq təmin edilməsi baxımından, önəmli hüquqi əhəmiyyətli əlavə və dəyişiklik kimi dəyərləndirilməlidir.

O cümlədən, "Vətəndaşlıq hüququnun təminatı" (maddə 53) variantında "Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Respublikası vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz" variantını mövcud variantla müqayisə etdikdə, daha da təkmilləşmiş hüquq norması ilə qarşılaşırıq.

Vətəndaşlıq institutu dövlət və vətəndaş arasında siyasi-hüquqi münasibətlərin müstəvisində qurulur. Vətəndaşların şəxsi mənafeyinə nələrin uyğun olub-olmamasını bəzi istisnalarla özlərinin həll etməsi hüququ mütərəqqi prinsip kimi qəbul edilməlidir.





Referendum Aktı layihəsində müzakirəyə çıxarılan yeniliklərdən biri də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Prezidenti tərəfindən buraxılması ilə bağlı edilən təklif idi ki, xalqımız bu təklifə "HƏ" dedi. Çünki dünya təcrübəsində, demokratik inkişaf yolunda olan dövlətlərdə təkamülün nəticəsi olaraq, parlament üzvlərinin daha çox seçicilərdən asılı olması və onlar qarşısında hesabat verməklə hamılıqla idarəetməyə nail olma mövqeləri əsas hədəflərdən hesab olunur. Hüquqi baxımdan Referendum Aktı layihəsinə edilən bu təklif əvvəlki institutun təkmilləşməsi baxımından yeniliklərin zərurətlə əlaqədar yaradılması istiqamətində mütərəqqi təşəbbüskarlığın nəticəsidir.

Həmçinin, Azərbaycan Respublikasında demokratik siyasi institutların inkişafı üçün sosial-iqtisadi və hüquqi şərait yaradan ümumxalq səviyyəli təkliflər kimi qiymətləndirərək, deməliyik ki, bu müddəalar Azərbaycan Respublikasının Prezident idarəetmə sisteminin və ümumilikdə, demokatik idarəetmənin dərinləşməsi üçün xüsusi əhəmiyyəti ilə seçilən, xalq müzakirəsinə verilən, dövləti və xalqı birləşdirən, dövlətdaxili və beynəlxalq əhəmiyyətli hüquqi sənədlər məcmusudur.

Beləliklə, bir daha əminliklə vurğulaya bilərik ki, Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan mühüm siyasi kampaniya beynəlxalq seçki qanunvericiliyinə uyğun şəkildə uğurla başa çatmış və xalq tamamilə azad, şəffaf, demokratik şəraitdə iradəsini ortaya qoymuşdur. Referendumun nəticələri vətəndaşların ölkə iqtidarına dərin inamını bir daha əyani şəkildə nümayiş etdirmişdir. Bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi siyasətin ölkə vətəndaşları tərəfindən birmənalı dəstəklənidiyini deməyə ciddi əsaslar verir.

# Dünyada benzinin qiyməti sürətlə artmaqdadır

*Dövlət vətəndaşlara zərər dəyməsin və benzin qıtlığını hiss etməsin deyə özü ziyana getdi, amma bununla belə vətəndaşlar bilməlidirlər ki, Azərbaycanda benzin çox ucuzdur*

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında” 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarında dəyişiklik edib. Dəyişikliyə əsasən, ölkəyə idxal olunan bəzi mallar üçün aksiz vergisi azaldılıb.***

Belə ki, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə mühərrik benzinlərinin hər 1 tonu üçün aksiz vergisi 200 manatdan 1 manata endirilib. Qərar avqustun 16-dan etibarən qüvvəyə minib və 60 gün müddətində qüvvədə olacaq. Nazirlər Kabineti, həmçinin, “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında da dəyişiklik edib. Dəyişikliyə əsasən, 92 oktanlı benzin üçün gömrük rüsumu 15 faizdən 0 faizə endirilib. Bu qərar da avqustun 16-dan etibarən qüvvəyə minib və 60 gün müddətində qüvvədədir. Məsələ ilə bağlı açıqlama verən SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, zavodlar təmirə bağlanan vaxt SOCAR müəyyən çatışmazlıqların olmasından ehtiyat edib: “Biz hökumətdən xahiş etdik və 30 min tona yaxın benzin gətirdik. Bu, bizə zərərlə başa gəldi. Amma ölkədəki benzinə olan tələbatı tam ödədik. Əhali bunu hiss etmədi. Benzinin idxalına olan vergilərin götürülməsinə baxmayaraq, bu, bizə bir neçə milyon manat ziyan vurub”.



Göründüyü kimi, dövlət vətəndaşlara zərər dəyməsin və benzin qıtlığını hiss etməsin deyə özü ziyana gedib. Amma bununla belə vətəndaşlar bilməlidirlər ki, Azərbaycanda benzin çox ucuzdur.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev onu da bildirib ki, Azərbaycana benzin idxalı artıq dayandırılıb: “Azərbaycanda benzinin qiyməti çox aşağıdır. Vergiləri götürsələr də, heç kim bura benzin gətirməyəcək. Çünki benzinin qiyməti o qədər aşağıdır ki, xaricdən gətirilən benzin iki dəfə baha başa gəlir”.

“Qlobal Neft Prices” 2016-cı ildə dünya ölkələrində benzinin qiymətlərinin siyahısını yayıb. Həmin siyahıya görə, benzinin litrinin qiyməti Honqkonqda 1,82, Hollandiyada 1,67, Norveçdə 1,63, Monakoda 1,58, Danimarkada 1,57, İtaliyada 1,56, İsraildə 1,52, Yunanıstanda 1,51, Portuqaliyada, İsveçdə 1,49, İngiltərədə və İslandiyada 1,48, San-Marinoda, Finlandiyada 1,47, Fransada 1,40, Türkiyədə və Almaniyada 1,37, Braziliyada, Çində, Hindistanda, İraqda, Özbəkistanda və digər ölkələrdə 1 dollar səviyyəsindədir. Xüsusilə də, son aylar nəticəsində dünya səviyyəsində dolların qiymərinin 2 dəfəyədək yüksəlməsi adıçəkilən ölkələrdə benzinin də qiymətinin artmasına gətirib çıxarıb. Lakin Azərbaycanda bu gün benzinin qiyməti dünya səviyyəsilə müqayisədə çox aşağıdır: təxminən 0,50 dollar civarındadır.

Bu gün Azərbaycanda benzinin qiyməti Səudiyyə Ərəbistanı, Qətər, İran, Qazaxıstan, Bəhreyn və Malayziya - yəni dünyanın ən iri neft hasilatçıları olan ölkələrdəki qiymətlərlə təxminən eynilik təşkil edir, hətta bir qədər də aşağıdır. Məsələn, Səudiyyə Ərəbistanı və Qətərdə neftin qiyməti 0,55-0,60 dollar səviyyəsindədir.

Göründüyü kimi, Azərbaycanda benzin dünya ölkələrilə müqayisədə çox ucuzdur. Bunu isə, əlbəttə ki, dövlətin atdığı addımlar nəticəsində etmək mümkün olmuşdur. Bu baxımdan da, müəyyən dairələrin spekulyasiları əsassızdır və reallığı əks etdirmir.

***“SƏS” Analitik Qrupu***

# AMEA-nın Mərkəzi-Elmi Kitabxanasının bir illiyi münasibətilə hesabat konfransı keçirilib

***AMEA-nın Mərkəzi-Elmi Kitabxanasının (MEK) oxucuların istifadəsinə verilməsinin bir illiyi münasibətilə hesabat konfransı keçirilib. Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Akademiyanın inkişaf mərhələsində olduğunu söyləyərək, kitabxananın istifadəyə verilməsinin dövlət başçısının elmə, təhsilə, mədəniyyətə göstərdiyi diqqətin bariz nümunəsi olduğunu deyib.***

AMEA-nın vitse-prezidenti MEK-də həyata keçirilən Milli rəqəmsal yaddaş, “Vahid idarəetmə sistemi”, “Vikipediya”, “Paralel sorğu”, “Açıq Kitabxana” və s. layihələrin uğurla icra edildiyini qeyd edərək, Ümummilli Lider Heydər Əliyev irsinə aid olan ədəbiyyatın rəqəmsallaşdırılmasını, elektron kataloqa və videotəqdimat formasına salınmasını xüsusi vurğulayıb.

Tədbirdə çıxış edən kitabxananın direktoru, tibb üzrə fəlsəfə doktoru Leyla İmanova bir il ərzində görülən işlər, əldə olunan nəticələr və perspektivlər barədə geniş hesabat nitqi söyləyib. O, 2015-ci ilin sentyabr ayında MEK-in açılışı zamanı qarşıya qoyulan vəzifələrin uğurla icra edildiyini bildirib.



L.İmanova 2016-2019-cu illər üçün 5 strateji hədəf müəyyən edildiyini bildirərək, bunların Vahid İdarəetmə Sisteminin tam hazırlanıb istifadəyə verilməsi, Milli rəqəmsal yaddaş bazasının işlək vəziyyyətə gətirilməsi, peşəkar heyətin formalaşması, beynəlxalq əməkdaşlığın və ictimaiyyətlə əlaqələrin qurulması, informasiya təhlükəsizliyinin ən yüksək səviyyədə təmin edilməsi olduğunu bildirdi. Sonda kitabxananın fəaliyyətini əks etdirən film nümayiş etdirildi.



***ZÜMRÜD***

# “Azərbaycanın geosiyasəti Əli Həsənovun tədqiqatında”

*Yunus Oğuzun yeni kitabı işıq üzü görüb*




Yazıçı-publisist, türkoloq-alim Yunus Oğuzun müəllifi olduğu daha bir kitab işıq üzü görüb. “Azərbaycanın geosiyasəti Əli Həsənovun tədqiqatında” adlanan kitabda Yunus Oğuzun Azərbaycan Respublkiası Prezidentinin köməkçisi Əli Həsənovun müəllifi olduğu “Azərbaycanın geosiyasəti” adlı kitabı haqqında düşüncələri, fikirləri yer alıb. Siyasi elmlər doktoru, professor Elman Nəsirovun elmi redaktor olduğu kitaba ön sözü AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor, millət vəkili Musa Qasımlı yazıb. Yunus Oğuz qeyd edir ki, Əli Həsənovun müəllifi olduğu kitabı günün kitab hadisəsi adlandırsaq, yanılmarıq. Çünki bu əsərdə yazılanlar, qeyd olunanlar (1.Azərbaycanın geosiyasi inkişaf tarixi və xarakteristikası, müasir milli inkişaf siyasətinin əsasları, 2. Azərbaycanın beynəlxalq aləmlə geosiyasi münasibətləri, 3. Azərbaycanın beynəlxalq aləmlə geoiqtisadi münasibətləri, 4. Azərbaycanın xarici aləmlə hərbi-geostrateji münasibətləri, beynəlxalq, regional və milli təhlükəsizlik siyasətinin əsasları), nəinki dövlətimizin əsas siyasətinin sütununu təşkil edir, bu, həm də dövlət siyasətinin preroqativləri hesab edilir. Göstərilən istiqamətdə düzgün siyasətin aparılması dövlətimizin nüfuzunu regionda və dünyada yüksəltməklə yanaşı, dövlətimizin vətəndaşlarının rifahını yüksəldir, onun etibarını qazandırır, çünki “hakimiyyətin mənbəyi xalqdır” müddəası 1995-ci ildə qəbul edilmiş Ana Yasamızda yazılıb. Yunus Oğuz Əli Həsənovun müəllifi olduğu əsərin üstün cəhətləri barədə də “Azərbaycanın geosiyasəti Əli Həsənovun tədqiqatında” kitabında geniş bəhs edir.

# “Gəlincik” layihəsinin açılış mərasimi keçirilib




YAP Gənclər Birliyinin ofisində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi və YAP Gənclər Birliyinin təşkilati dəstəyi ilə həyata keçirilən “Gəlincik” layihəsinin açılış mərasimi və ilk görüşü keçirilmişdir. Tədbiri giriş sözü ilə açan layihə rəhbəri Bəyim Məmmədli gənclərə layihənin əhəmiyyəti barədə ümumi məlumat verərək, layihənin məqsədini və layihə ərzində keçiriləcək təlimlərin mövzularını iştirakçıların diqqətinə çatdırıb.

Daha sonra təlimçi Zaur Quliyev iştirakçıları erkən nikahların hüquqi cəhətdən də yolverilməz olduğunu qeyd edib. O bildirib ki, erkən nikahlarla bağlı maarifləndirmə işlərini, mütəmadi olaraq, həyata keçirmək lazımdır. Sonda gəncləri maraqlandıran suallar cavablandırıldı.

***Ü.ƏSGƏROV***

# ABŞ və Qərbin siyasi dairələri anlamağa məhkumdurlar...

## Heç bir qaranlıq planınız və mənfur arzularınız baş tutmayacaq. Azərbaycan xalqı buna qətiyyən imkan verməyəcək!

***Sirr deyil ki, Azərbaycanın davamlı inkişafı, onun beynəlxalq nüfuzunun yüksəlməsi, ölkədə mövcud olan təhlükəsizlik və sabitlik faktoru hər zaman ABŞ və Qərbin ermənipərəst, islamofob dairələrini ciddi şəkildə narahat edib. Məhz bu gün də həmin mövqe ortadadır və əldə edilən istənilən nailiyyət sözügedən dairələri təlaşlandırır, narahatlığa düçar edir. Əlbəttə ki, bu tipli mövqelərin sərgilənməsi arxasında dayanan əsas amillərdən biri və birincisi demokratik, dünyada məxsusi yeri olan, söz sahibinə çevrilən və müsəlman ölkəsi olan Azərbaycanın beynəlxalq aləmdə sürətlə irəliləməsidir.***





Sosial, iqtisadi, siyasi və s. istiqamətlərdə əldə edilən uğurlar qeyri-səmimiyyətləri ilə seçilən mövcud dairələrin müxtəlif bəhanələrlə hərəkətə keçmələrinə səbəb olmaqdadır. Ona görə də ABŞ və Qərbin anti-Azərbaycan dairələri hər dəfə Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən hadisələr ərəfəsində fəallaşır, demokratiya adı altında müxtəlif QHT şəbəkəsi və media vasitəsilə ölkəmizə qarşı çirkin kampaniyalara start verirlər. Bu kimi qərəzli, şantaj və s. xarakterli addımların seçkilərdə, beynəlxalq idman və mədəniyyət tədbirlərində atıldığının kifayət qədər şahidi olmuşuq. Nəticədə, xalqımız bir daha əmin olur ki, bu gün ABŞ və onun Avropadakı müttəfiqləri müxtəlif bəhanələrlə müstəqil ölkələrin daxili işlərinə müdaxilə edir, sabit cəmiyyətlərdə xaos yaradır, hakimiyyət çevrilişləri ssenariləri həyata keçirirlər.

### Xalq ordusu istənilən daxili və xarici qüvvəni yerinə otuzdurmağı bacarır

Onlar bu cür mənfur addımlarını illərdir ki, Azərbaycan üzərində də gerçəkləşdirməyə çalışsalar da, ciddi məğlubiyyətə uğrayıblar. Daha dəqiq desək, Azərbaycanı Misir, Liviya, İraq, Suriya və başqa ölkələrlə səhv salan bu dairələr planları baş tutmadıqca, daha da aqressivləşir, daxillərində formalaşmış çirkin niyyətlərini aşkara çıxarmış olurlar. Çünki ilk növbədə, Azərbaycanda formalaşmış xalq-iqtidar vəhdəti belə planların icrasına imkan vermir. Azərbaycan xalqı dövlətçilik prinsiplərinin qorunub-mühafizə edilməsində hər zaman başqa ölkələrə nümunə olmuşdur. Xalq ordusu öz ölkəsinə qarşı oynanılan qərəz oyunlarına qarşı sərt mövqe göstərməklə istənilən daxili və xarici qüvvəni yerinə otuzdurmağı bacarır. Daim dövlətinə arxa-dayaq olan Azərbaycan xalqı müxtəlif ölkələrdə həyata keçirilən hakimiyyət çevrilişləri və hərbi müdaxilə ssenarilərindən doğan qanlı müharibələrin, on minlərlə insanların ölümünün, sosial-iqtisadi infrastrukturun dağılmasının nə olduğunu yaxşı dərk edir, bu səbəbdən də, daha ayıq-sayıq olur.

O ölkələrdə tökülən hər bir insan qanı, itirilən həyat, dağılan ev həmin dairələrin üzərindədir.

Belə bir məqamda aşkar şəkildə görünməkdədir ki, ABŞ və onun partnyorları bu gün Misir, İraq, Liviya, Suriya və digər ölkələrdə baş verən qanlı olaylara görə, bilavasitə, cavabdehlik daşıyırlar. O ölkələrdə tökülən hər bir insan qanı, itirilən həyat, dağılan ev həmin dairələrin üzərindədir.

Halbuki ABŞ və Qərb ölkələrində insan hüquqlarının pozulması, korrupsiya, ksenofobiya, irqçilik və faşizm şüarları geniş vüsət alıb. ABŞ-da son illər qara dərililərə qarşı olan faktiki münasibət, bu hadisələri işıqlandıran jurnalistlərin, media işçilərinin siyahıya alınaraq təqib olunması, Avropada cərəyan edən qaçqın böhranı bunu əyani şəkildə təsdiq edir. Maraqlıdır, başqa ölkələrə “demokratiya dərsi keçib”, həmin ölkələrin daxili işlərinə qarışan amerikalı və qərbli başbilənlər nəyə görə öz daxillərindəki çoxsaylı bənzər hadisələri bir kənara qoyaraq, başqalarına “ağıl” öytərtməyə çalışırlar? Bunun özü, bilavasitə, dümokratik dəyərləri tapdamaq deyilmi?!

### Vaşinqtonun imper siyasəti də göstərir ki, hazırkı dövrdə beynəlxalq hüquq işləmir, onun yerini isə bütün dünyaya hakim kəsillən diktat siyasəti tutub

Əslində, kifayət qədər özünü təsdiq edən faktlardan biri də budur ki, ABŞ-ın hakim dairələri bununla bütün dünyaya mesaj vermək istəyir ki, həqiqət heç də ədalətin yanında deyil, məhz güclünün tərəfindədir. Güclü haqqı, ədaləti məhv edib, öz “ədalətini” ictimai rəyə qəbul etdirmək niyyəti güdür. Bu baxımdan, Vaşinqtonun imper siyasəti də göstərir ki, hazırkı dövrdə beynəlxalq hüquq işləmir, onun yerini isə bütün dünyaya hakim kəsilən diktat siyasəti tutub.

Lakin hər necə olursa-olsun, anti-Azərbaycan qüvvələrin müstəqil, güclü və qətiyyətli siyasət yürüdən Azərbaycana qarşı həyata keçirdiyi məkrli siyasət heç bir nəticə verməyəcək.

### Prezident İlham Əliyev: “Heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilməz”

Əbəs yerə deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev cənabları daim öz çıxışlarında vurğulayır ki, Azərbaycan dünya miqyasında öz sözünü deyən ölkəyə çevrilib və bu fakt öz təsdiqini hər zaman tapmaqdadır: “Bizim siyasi iradəmiz ən yüksək kürsülərdə özünü göstərir. Heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilməz. Bunun səbəblərindən biri bizim iqtisadi gücümüz və iqtisadi müstəqilliyimizdir. Əlbəttə, iqtidarın siyasi iradəsi kifayət qədər möhkəmdir. Xalq ilə iqtidar arasındakı birlik əsas şərtdir. Yəni bu, bizim müstəqil həyatımızı şərtləndirən əsas amildir”.

Beləliklə, ölkəmizə qarşı mənfur, çirkin və qərəzli siyasət yürüdən xarici qüvvələr - amerikalı başbilənlər, avropalı “ağılqoyanlar”, eləcə də, erməni lobbisinin pullarından şirnikləşən və bunun nəticəsində siyasi korrupsiyaya bulaşmış xarici QHT-lər anlamağa məhkumdurlar - heç bir qaranlıq planınız və mənfur arzularınız baş tutmayacaq. Azərbaycan xalqı buna qətiyyən imkan verməyəcək!

***Rövşən NURƏDDİNOĞLU***

## İRNA agentliyi Azərbaycanda keçirilən referendumdan yazıb

İran İslam Respublikasının İRNA dövlət xəbər agentliyinin saytında Azərbaycanda keçirilmiş ümumxalq səsverməsi (referendum) haqqında material yerləşdirilib. Yazıda qeyd edilib ki, sentyabrın 26-da Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə səsvermədə iştirak edib. Nəzərə çatdırılıb ki, Azərbaycan Prezidenti tərəfindən Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər ölkənin inkişafına və dövlətin möhkəmlənməsinə xidmət edəcək. Materialda səsvermənin sabit və demokratik şəraitdə keçdiyi vurğulanıb. Qeyd olunub ki, 2002 və 2009-cu illərdə də Azərbaycanın Konstitusiyasına ümumxalq səsverməsi yolu ilə dəyişikliklər edilib.

## Uorlik danışıqlara mənfi təsir edə biləcək hərəkətlərdən qaçmağa çağırıb



ATƏT-in Minsk Qrupunun həmsədrləri atəşkəs rejimini təşviq etməklə, Dağlıq Qarabağ münaqişəsi tərəfləri ilə fəal işi davam etdirir. SİA-nın məlumatına görə, bunu aysor.am saytına açıqlamasında ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib. Onun sözlərinə görə, tərəflər Vyana və Soçi sammitlərində ATƏT-in missiyasının genişləndirilməsi daxil olmaqla əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində birgə işləməlidirlər: “Biz xarici işlər nazirləri Nalbandyan və Məmmədyarovla Nyu-Yorkda keçirilən görüşlərdə danışıqların irəliyə aparılması üçün atmosferin yaradılması və nizamlanmaya gətirə biləcək gələcək addımları müzakirə etdik”.

Həmsədr yaxın gələcəkdə regiona növbəti səfər edəcəklərini deyib, amma dəqiq tarixin hələ müəyyən edilmədiyini vurğulayıb. Uorlik Ermənistan və Azərbaycanı danışıqlar prosesinə mənfi təsir edə biləcək hərəkətlərdən qaçmağa çağırıb.

## Xaçmazda ata oğlunu bıçaqladı



Xaçmazda bıçaqlanma hadisəsi baş verib. APA-nın şimal bürosunun verdiyi məlumata görə, hadisə rayonun Köhnə Xaçmaz kəndində qeydə alınıb. 1990-cu il təvəllüdlü Əzizov Nizami Şirinbala oğlu bıçaq xəsarəti ilə Xaçmaz Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. O, hazırda əməliyyat olunur. İlkin məlumata görə, xəsarət alan şəxs atası tərəfindən bıçaqlanıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## Aleksandr Novak: Neft bazarında tələb-təklif tarazlığı 2017-ci ilin ikinci yarısında təmin ediləcək



Neft bazarında tələb-təklif tarazlığı 2017-ci ilin ikinci yarısında təmin olunacaq. AZƏRTAC “ria.ru”ya istinadla xəbər verir ki, Rusiyanın energetika naziri Aleksandr Novak bu fikirdədir. “Hər şey tələb, təklif və neft istehlak edən bir çox ölkənin iqtisadi vəziyyəti ilə bağlıdır. Bütün bunları yaxşı analiz etmək lazımdır. Mənim fikrimcə, gələn ildən bazarda neft tələbi arta bilər. 2017-ci ilin ikinci yarısında isə tələb-təklif tarazlığı bərpa ediləcək”, - deyə A.Novak qeyd edib.

# Xalq yenə də müxalifəti boykot etdi

*QHT rəhbərləri müxalifətin hay-küyünün arxasında xarici məkrli qüvvələrin dayandığını iddia edirlər*

***Referendum azad və demokratik şəkildə xalqın istəyinə uyğun başa çatdı. Amma müxalifət və onların xaricdəki qüvvələri hələ də hay-küy salmaqda davam edirlər. Vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri ilə söhbətimizdə onlar dağıdıcı müxalifətin hay-küyünün arxasında xarici məkrli qüvvələrin dayandığını bildirdilər.***



**Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov:**

- Müxalifət və onların xaricdəki havadarları adət ediblər hay-küy qaldırmağa. Amma hay-küy əsassızdır. Çünki Azərbaycan xalqı hakimiyyətin ətrafında sıx birləşib. Xalq 26 sentyabr ümumxalq səsverməsində-referendumda əlavə və dəyişikliklərə "HƏ" deməklə dağıdıcı müxalifəti və onların arxalandıqları məkrli, pozucu qüvvələri boykot etmiş oldu. Dağıdıcı müxalifət Azərbaycan xalqının və dövlətinin maraqları baxımından deyil, öz maraqları çərçivəsində çıxış edir. İllərdi xarici qüvvələr pərakəndə və dağınıq halda olan radikal müxalifəti birləşdirmək üçün müxtəlif layihələr həyat keçirməyə çalışıblar. Amma yekun nəticə ondan ibarətdir ki, iddialar müxalifətin birləşmələrinə imkan verməyib. Əgər doğrudan da, Azərbaycan dövlətinin, xalqının maraqları onların fəaliyyətinin əsas prinsipi olsaydı, keçirməyə cəhd etdikləri mini-aksiyalara 5-10 nəfər gələrdi. Nə qədər ki, indiki kərimlilər, həsənlilər, hacılılar partiya rəhbərləridirlər, müxalifətin formalaşması mümkün olmayacaq. 26 sentyabr referendumu bir daha göstərdi ki, xalq müxalifəti rədd edir. Bu baxımdan, müxalifət partiyaları tarixin arxivinə atılmağa məhkumdurlar.

**"Demokratik Azərbaycan Naminə" Gənclərin İctimai Birliyinin sədri Elməddin Behbud:**

- 26 sentybar 2016-cı ildə Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklərlə bağlı referendum keçirildi. Minlərlə yerli və beynəlxalq təşkilatların müşahidə etdiyi ümumxalq səsverməsinin artıq ilkin nəticələri bəllidir. Dağıdıcı müxalifətin pozuculuq cəhdlərinə, insanların siyasi fikirlərini çaşdırmaq hallarına baxmayaraq, Azərbaycan vətəndaşlarının böyük hissəsi seçki məntəqələrinə gələrək, ölkənin taleyüklü məsələsinə-Ana Qanuna təklif olunan əlavə və dəyişikliklərə səs verdilər. Hər bir dövrün özünəməxsus iqtisadi və siyasi tələbləri mövcuddur. Konstitusiyamıza edilən əlavə və dəyişikliklər, məhz bu yeniliklərin Ali Qanunda hüquqi təstiqi, eyni zamanda Azərbaycan Respublikasının müstəqillik dönəmində əldə etdiyi uğurların, sabitlik və təhlükəsizliyin gələcəkdə də qorunub- saxlanılması üçün zəruri addımların atılması ehtiyacından irəli gəlir. Referendum Aktının qəbul olunmasını vətəndaşlarımızın, xüsusilə gənclərimizin regionda və bütövlükdə, dünyada cərəyan edən geosiyasi prosesləri, yeni çağırışları adekvat dəyərləndirməsi kimi qiymətləndirmək lazımdır. Düşünürəm ki, referendumun nəticələri Azərbaycan xalqının siyasi iradəsinin ifadəsi olaraq ölkəmizin təhlükəsiz, stabil və davamlı inkişafı istiqamətində atılmış mühüm addımdır.

**"Şəmsi Əsədullayev" Xeyriyyə İctimai Birliyinin nümayəndəsi Cəsarət Hüseynzadə:**

- Referendum və onun nəticələrini qiymətləndirmək üçün, heç şübhəsiz, seçki texnologiyalarından istifadə etmək lazımdır və həmin ölçü meyarlarından istifadə edərək, qiymətləndirmə aparılmalıdır. Əsas göstəricilərdən biri, qeyd etmək lazımdır ki, referendumu 117 beynəlxalq müşahidəçi də daxil olmaqla, 53 mindən artıq müşahidəçi izləyib. Demək olar ki, hər seçki məntəqəsində 10-a yaxın müşahidəçi fəaliyyət göstərib. Bu, şəffalığın təmin edilməsi üçün yüksək bir göstəricidir. Bundan başqa, xeyli məntəqələrdə müşahidə kameraları quraşdırılıb. Eyni zamanda, beynəlxalq səviyyədə azad və demokratik seçki meyarı sayılan "Exit-poll"un keçirilməsidir ki, xarici təşkilatlarla əməkdaşlıqda 4 belə qurum müstəqil sürətdə bu prosesi izləyib və artıq öz müsbət rəyini də açıqlayıb. Eyni zamanda, AŞPA missiyası, TürkPA Beynəlxalq Müşahidə Missiyası, Avropa Xalq Partiyasının müşahidə missiyası, Avropa Seçkilərin Müşahidəsi Akademiyası, Beynəlxalq QHT-dən ibarət Müşahidə Qrupu və digər beynəlxalq müşahidə missiyaları referendumun azad və şəffaf şəraitdə keçirilməsi ilə bağlı ilkin rəylərini açıqlayıblar. Ümumilikdə, hər hansı bir neçə məntəqə kiçik texniki problemlərin yaranması və yaxud hər hansı qanun pozuntusunun olması belə bu prosesə kölgə sala bilməz. Çünki bu məsələlərin həlli üçün qanunvericilikdə müvafiq proseduralar müəyyənləşib.

***GÜLYANƏ***

## *Almaniya Bundestaqının üzvləri Bakıya gələcək*



Almaniya Bundestaqının nümayəndə heyəti 4-5 oktyabr tarixlərində Bakıda səfərdə olacaqlar. SİA-ya Almaniyanın Azərbaycandakı səfirliyindən verilən məlumata görə, onlar beynəlxalq parlament təqaüdü proqramı (İPS) üçün 2017-cü il üzrə namizədləri seçəcəklər. Nümayəndə heyətinə Bundestaqın deputatı Aleksandr Ulrix rəhbərlik edəcək. İPS proqramı çərçivəsində dünyanın 41 ölkəsindən 120 təqaüdçü 1 mart-31 iyul 2017-ci il tarixinədək Almaniya Bundestaqı tərəfindən tam maliyyələşdirilən təqaüd çərçivəsində bu ölkənin parlamentar sistemi ilə tanış olmaq imkanı əldə edirlər. Proqramın məqsədi siyasətin aparılması və demokratik qərarların verilməsi proseslərinin yaxından şahidi olmaqdır. Təqaüdçülər alman parlamentinin bir deputatının yanında işləyirlər və eyni zamanda Berlin universitetlərinin birində tələbə olaraq qeydiyyata alınırlar. Təqaüdçülər, həmçinin parlamentdəki fəaliyyətlərində əlavə olaraq universitetin mühazirə və seminarlarında da iştirak edə bilirlər. Bu proqram Bundestaqın prezidentinin xüsusi himayəsi və üç Berlin Universiteti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bütün səfər, yaşayış və sığorta xərcləri habelə aylıq təqaüd Bundestaqı tərəfindən ödənilir.



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

# Fətullah Gülən Türkiyəyə ekstradisiya olunarsa...

## Düzəlmədiniz ki, düzəlmədiniz, a bəylər..!

"Qozbeli qəbir, əyri taxtanı rəndə düzəldər" deyiblər dədələrimiz. Ancaq elə şeylər və elə kəslər də var ki, onların əyriliklərini nə qəbirlərin, nə rəndələrin, nə də başqa zadlar olan alətlərin (fikriniz ayrı şeyə getməsin-R.) düzəlməsi mümkün deyil. Necə ki, bu gün də özlərini "müxalifətçi" adlandırıb, bir-biriləri ilə "analıq" üstündə savaşan, didişən siyasi gədalar toplumu kimi. "Analıq" dedikdə, yəqin ki, bir çoxları nə demək istədiyimi anladı. Çünki 23 ildən artıqdır ki, müxalifət düşərgənin gah bu, gah da digər cinahlarında var-gəl edib nəticəyə gələ bilməyənlər, zaman-zaman müxalifətin "anası" olmaq üstündə əməllibaşlı qırğına çıxırılar. Hətta ictimai rəyə sırınmaq üçün özlərini "savadlı" da göstərməyə çalışırlar. Ancaq bəri başdan onu da sual edim ki, a bəylər, əcəba, savadınız bu qədər izafidirsə, necə deyərlər, izafiliyindən, artıqlığından dolayı qıcqırıbsa, bəs niyə hələ də qırğın-qiyamətdəsiniz? Ən azından, siyasi savadınızı qoyun ortaya, biz də bilək da nə var-nə yox! Amma kimə deyirsən...

Hə, yeri gəlmişkən, bu günlərdə axecepeçilərin "başbiləni" Ə.Kərimlinin buyruq qulu, "Milli Şura"nın baş bəyi C.Həsənli yığıb ətrafına özükimiləri və qondarma qurumu adından bəyanat verib. Əmbə, bu bəyanat yalnız Azərbaycan dilində deyil, həm də ingilis dilində yazılıb (?!-R.). Bəli, referendumun dünyanın aparıcı beynəlxalq qurumları tərəfindən demokratik, şəffaf başa çatması barədə verdikləri bəyanatları qalıb bir yanda, bunlar həmin məsələ ətrafında hələ də baş-gözlərini divara çırpır, özlərini müasir jarqon ifadəsi ilə desək, lezvalayırlar. Məsələ ondadır ki, "Milli Şura" və axecepeçilər referendum günü düşüblər ortaya və başlayıblar referendum səsverməsini izləməyə! Bəli, məhz izləməyə...

Referendumdan qabaq bunlar lazımi qədər imza toplaya bilmədikləri halda, digər anti-referendumçu müxalifət təşkilatları ilə birləşə bilməyib də, doğru-dürüst təşəbbüs qrupları qeydiyyatdan keçirə bilmədikləri vəziyyətdə (!-R!) referendum günü seçki məntəqələrində "müşahidəçilik" (?-R.) ediblər. Sual olunur ki, 23 ildir ki, köhnə havaları çalaraq, qulaqları döyənək edib "qanun-qayda", "demokratiya" tələb edən zurnaçıların bu addımlarına hansı adı vermək olar?!

İndi biz də duraq deyək ki, heç bir müşahidəçilik missiyası hüquqnunzun olmadığı halda, referendumun baş tutub-tutmaması ilə bağlı rəylər, bəyanatlar irəli sürməyiniz kimə lazımdır? Venesiya Komissiyasına?! ABŞ-ın Dövlət Departamentinə?! Yoxsa "Freedom House" və s. tipli ermənipərəst qurumlara?! Bu qurumlar haqqında Azərbaycan dövlətinin mövqeyi səslənib və hələ referendumdan öncə müvafiq cavabları da verilib. Onda bu qanunsuzluqlarınızı hara yazaq, a bəylər?!

Referendumdan öncə bar-bar bağırırdınız, boğazınızı yırtırdınız ki, xalq bu prosesi boykot etsin. Görəndə ki, xalq sizi saymır, başladınız özünüz-özünüzə təskinlik verməyə ki, bəs biz boykot qərarını seçirik. İndi nə oldu? Boykot etməyiniz hara, referendumun nəticələrini qeydə alınmayan müşahidəçilər kimi araşdırmanız, üstəlik, ingilis dilində də bəyanat yaymağınız hara?

Yox, əgər demək istəyirsinizsə ki, ingilis dilində qırıldaya bilirsiniz, bu heç nəyi həll etmir. Çünki ingilis dilini bilmək savadlı olmaq demək deyil, sadəcə, əcnəbi dilin praktik göstəricisidir. Buna görə özünü yırtıb-dağıtmağa da ehtiyac yoxdur. Amma sabahda-birigündə Müsavat partiyasının da saxta başqanı, qeyri-legitimlik yolu ilə sədr kreslosunu istila etmiş A.Hacılı fransız dilində anti-referendum bəyanatı hazırladacaqsa, bundan təəccüblənməyə dəyməz. Bəylər Avropanın iki dövlət dilində - ingilis və fransız dilində danışa bilirlərmiş, "savadlıymışlar"...

Beləliklə, məsələ aydındır. Aydındır ki, bunları nəinki rəndə, ya da qəbir, hətta paz da düzəldə bilməz. Ancaq hələ də özlərini "siyasi cəhətdən yetkin", ayrı-ayrılıqda müxalifətin "anası" hesab edirlər. Bu 23 ildə düzəlmədiniz ki, düzəlmədiniz, a bəylər..!

***P.S.** Ağıllanıb normal düşüncəli cəmiyyət sıralarına qatılmanız, heç olmasa bundan sonra naftalin qoxusu verməməniz üçün dualarımı əskik etməyəcəm...*

# Bəzi Qərb təşkilatlarının referendumla bağlı qərəzli iddiaları alt-üst oldu!

## *Beynəlxalq müşahidəçilər referendum prosesinin beynəlxalq standartlara uyğun keçdiyini qətiyyətlə vurğuladılar*

***Sentyabrın 26-da Azərbaycan xalqı ölkə konstitusiyasında dəyişikliklərə dair referendum səsverməsinə böyük fəallıqla qatıldı və bu mühüm addımla, bir daha sübuta yetirildi ki, dövlətimiz demokratiya yolunda daha nəhəng addımlar atmağa qadirdir. Əbəs yerə deyil ki, baş tutmuş referendumla bağlı dünyanın bir çox aparıcı media qurumları, səsverməni izləyən nüfuzlu təşkilatların diqqəti, məhz Azərbaycanda oldu.***



Diqqətçəkici məqam isə Azərbaycanı gözü götürməyən bəzi xarici qüvvələrin, qeyri-hökumət təşkilatlarının hələ referendumun keçirilməsi ilə bağlı təkliflər səslənərkən, bu məsələ ətrafında siyasi manipulyasiyalara, simulyasiyalara yol verməkləri, qərəzli bəyanatlar səsləndirib istər ölkədaxili auditoriyada, istərsə də beynəlxalq gündəmdə ictimai rəyi çaşdırmağa cəhd etmələri oldu. Lakin onların bu cəhdləri, sentyabrın 26-da puç oldu və bunu biz deyil, Azərbaycanda referendumla bağlı səsverməni izləyən xarici müşahidəçilər öz hesabatlarında vurğulayırlar.




### Avropa İttifaqi Regional Komitə üzvlərindən ibarət müşahidə qrupu: "Seçicilər müstəqil və kənar müdaxilə olmadan səsvermədə iştirak edərək öz iradələrini ifadə etdilər"

Avropa İttifaqı Regional Komitəsinin 4 üzvündən ibarət müşahidə qrupu konstitusiyaya dəyişikliklərə dair 26 sentyabr 2016-cı il referendumunu müşahidə etmək üçün Azərbaycana səfər etdi və səsvermə günü prosesləri yaxından izlədi.

Qurumun hesabatında bildirilir ki, müşahidə qrupu səfəröncəsi referenduma çıxarılan konstitusion dəyişikliklərin məzmununu və legitimliyini araşdırdı, ümumxalq səsverməsi günü, 26 sentyabrda, 10 dairənin 2 məntəqəsində səsvermə prosesini izlədi, araşdırmalar və müşahidələr əsasında aşağıdakı nəticələrə gəldi:

- Referendumun keçirilməsi suveren Azərbaycan dövlətinin səlahiyyətinə aiddir və bu barədə qərar milli qanunvericiliyə uyğun qəbul edilib.

- Referenduma çıxarılan dəyişikliklər, əsasən, ölkədə idarəetmə sisteminin gücləndirilməsinə və insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsinə xidmət edir.

- Müşahidə qrupunun üzvləri olduqları məntəqələrdə çoxsaylı müşahidəçilərin səsvermənin gedişatını müşahidə etmələrinin şahidi oldular.

- Səsvermə prosesi texniki və təşkilati baxımdan yaxşı təşkil edilmişdi.

- Məntəqələrdə seçici aktivliyi yüksək idi, səsvermə prosesi dinc şəraitdə həyata keçdi.

- Hər hansı bir zərurət olmadan polisin və ya yerli icra hakimiyyəti nümayəndələrinin seçki məntəqələrinə daxil olmalarının və səsvermə prosesinə müdaxilə etmələrini müşahidə etmədik. Seçicilər müstəqil və kənar müdaxilə olmadan səsvermədə iştirak edərək, öz iradələrini ifadə etdilər.

- Səsvermə başa çatdıqdan sonra müşahidə qrupunun üzvləri bir məntəqədə bülletenlərin sayılmasını izlədilər və digər müşahidəçilərə bülletenlərin sayılması prosesini də izləməyə maneçilik törədilmədiyinin şahidi oldular.

Hesabatın sonunda komitə üzvləri - Finlyandiyadan olan Paulina Haijanen, Estoniya təmsilçiləri Müürsepp Kurmet və Sukles Urmas, Latviyadan olan nümayəndə Dainis Turlais imza ataraq vurğulayıblar. SİTAT: "Beləliklə, belə bir nəticəyə gəlirik ki, konstitusiyaya dəyişikliklərə dair 26 sentyabr 2016-cı il referendumu legitimdir və onun nəticələri Azərbaycan xalqının iradəsinin müstəqil və azad şəkildə ifadəsini əks etdirir".

### Avropa Xalq Partiyasının Müşahidə Nümayəndə heyəti: "Vətəndaşlar hər düzəliş üzrə öz səsini verə bildi, bu isə hər seçicinin səsvermə kabinəsində həmişəkindən daha çox qalmasına səbəb oldu"

Digər nüfuzlu Avropa təşkilatı - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının dəvəti əsasında Avropanın aparıcı siyasi ailəsi olan EPP-nin - Avropa Xalq Partiyasının nümayəndə heyəti də referendumla bağlı ölkəmizdə səfərdə olub və səsverməni izləyib. Belə ki, nümayəndə heyəti 7 dövləti təmsil edən və digər seçki müşahidələrində təcrübəyə malik 11 üzvdən, o cümlədən, Avropa Parlamenti və milli parlamentlərin hazırkı və keçmiş üzvləri, Avropa İttifaqı hökumətlərinin keçmiş üzvlərindən ibarət olub.

Bəyanatda vurğulanır: "Nümayəndə heyəti səsvermə günündən əvvəl bəzi seçki məntəqələrində hazırlıq işləri ilə tanış olmuş və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi ilə görüşmüşdür. Mərkəzi Seçki Komissiyası vətəndaşların ətraflı məlumatlandırılması, eləcə də səsvermə günü üçün nəzərdə tutulmuş prosedurlarla bağlı bütün hazırlıq işlərindən ibarət geniş təhlil təqdim etmişdir. Bizə məlumat verildi ki, səsə qoyulacaq 29 düzəlişin tam mətni və hazırkı konstitusiya mətni ilə fərq səsvermədən bir ay əvvəl bütün vətəndaşlara çatdırılmışdır. Mərkəzi Seçki Komissiyasının bütün qaydaları müsbət təcrübələrə və beynəlxalq standartlara uyğun idi".

"İlk olaraq onu vurğulamaq lazımdır ki, bu gün biz 1 deyil, 29 referendumun şahidi olduq, çünki Azərbaycan Respublikası vətəndaşları hər düzəliş üzrə öz səsini verə bildi, bu isə hər seçicinin səsvermə kabinəsində həmişəkindən daha çox qalmasına səbəb oldu"-deyə qeyd edilən bəyanatda daha sonra bildirilir ki, EPP nümayəndə heyəti səsvermə məntəqəsində açılış prosedurlarında iştirak etdi və səsvermə müddətində digər məntəqələrə baş çəkdi, eləcə də səsvermə məntəqələrindən birinin bağlanması prosesini müşahidə etdi: "Baş çəkilən bütün məntəqələrdə prosedurlar beynəlxalq normalara uyğun idi, seçicilərə müvafiq kömək göstərilirdi, böyük əksəriyyət prosesin mahiyyəti və səsvermə proseduru barədə yaxşı məlumatlanmışdı, eyni zamanda hərbçilər, yaxud polis işçilərinin olmadığı qeydə alındı".

Qurumun bəyanatında diqqətçəkici məqamlardan biri də MSK-nın iş fəaliyyətinin operativliyi ilə bağlıdır. SİTAT: "Səsvermə bağlandıqdan sonra nümayəndə heyətimizin bəzi üzvləri hazırda səslərin sayılması prosesini izləyir. Prosesin xüsusi şərtləri səbəbindən, səslərin sayılması uzun çəkəcəkdi, lakin Mərkəzi Seçki Komissiyası sürətli iş üslubu seçmişdir.

Ardı Səh. 14

# Bəzi Qərb təşkilatlarının referendumla bağlı qərəzli iddiaları alt-üst oldu!

*Beynəlxalq müşahidəçilər referendum prosesinin beynəlxalq standartlara uyğun keçdiyini qətiyyətlə vurğuladılar*

Əvvəli Səh. 13

## Avropa Seçkilərin Müşahidəsi Akademiyası (ASMA) Missiyası: "Seçicilərə adlarının seçici siyahısında olub-olmamasını MSK-nın veb-saytında yoxlamaq üçün şərait yaradılmışdır"

12 Avropa ölkəsindən olan 35 parlamentari və ekspertlərin cəmləşdiyi Avropa Seçkilərin Müşahidəsi Akademiyası da bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, beynəlxalq QHT-nin üzvü kimi, 26 sentyabr 2016-cı il Konstitusiya İslahatlarına dair referendumunu müşahidə edib. Belə ki, müşahidəçilərin çoxu Avropa Şurası Parlament Assambleyası və ya ATƏT Parlament Assambleyası kimi qurumların indiki və keçmiş üzvü olaraq, seçkilərin və referendumun müşahidəsində böyük təcrübəyə malikdir.

Vurğulanır ki, bu referendum səsvermənin ədalətli və azad keçirilməsini təmin edən cari Azərbaycan Respublikası qanunvericiliyinə, əsasən təşkil edilmişdir: "Mərkəzi Seçki Komissiyası (MSK) əmin etmişdir ki, kampaniyalar üçün kifayət qədər yer, eyni zamanda pulsuz efir vaxtı və qəzetlərlərdə bölmələr ayrılmışdır. Qeyd edilmişdir ki, referendum günündən 1 ay əvvəl 29 düzəlişin hamısı poçt kuryeri vasitəsilə bütün Azərbaycan vətəndaşlarına çatdırılmışdır.

Seçicilərə adlarının seçici siyahısında olub-olmamasını MSK-nın veb-saytında yoxlamaq üçün şərait yaradılmışdır. Bir neçə dəfə səsvermənin qarşısını almaq məqsədilə adları seçici siyahılarında olmayan seçicilər şəxsiyyət vəsiqələrini təqdim etməklə, adlarını siyahıya əlavə etdirmiş və səs vermişlər.

Beynəlxalq müşahidəçilər səsvermə bülletenində təklif edilən 29 düzəlişin hər biri barədə ayrı-ayrılıqda seçicilərin fikrinin soruşulmasını müsbət qarşılayır. Bununla, bütövlükdə təklif edilmiş islahatlar barədə bir qlobal rəyin formalaşmasının qarşısı alınmışdır".

"ASMA müşahidəçiləri referendum günü Bakıda və onun ətrafında təxminən 20 dairə üzrə müşahidə aparmışdır"-deyə qeyd edilən bəyanatda bildirilir. SİTAT: "Referendum günü ölkə boyu dinc keçmiş, səsvermə məntəqələrinə sərbəst və maneəsiz giriş olmuşdur. Yerli orqanlar və polisin seçki prosesinə müdaxiləsi müşahidə edilməmişdir. Seçicilərin qeydiyyatı ilə bağlı problemlər olmamışdır. Səsvermə gizli keçirildi və bununla bağlı problem müşahidə edilməmişdir. Barmaqların mürəkkəblənməsi prosesi düzgün qaydada aparılırdı.

Mərkəzi Seçki Komissiyasının səsvermə məntəqələrinin 20%-də quraşdırdığı veb-kameralar səsvermə proseslərini onlayn müşahidəyə imkan yaradırdı.

Daha sonar bildirilir ki, səsvermə məntəqəsində səslərin sayılması açıq və şəffaf keçdi. Müşahidəçilər səslərin sayılmasını tam izlədi və heç bir mühüm problem qeydə almadı: "Biz nəticələrlə bağlı rəsmi protokolların surətinin müşahidəçilərə paylanması faktını təqdirəlayiq hesab edirik. Hər seçki məntəqəsinin nəticəsi təyinatlı qutuda möhürlənərək, dairə səviyyəsində mərkəzi qərargaha göndərildi.

Referendum seçicilərin böyük əksəriyyəti tərəfindən dəstəklənmişdir. Venesiya Komissiyası ilkin rəyində insan hüquqları sahəsindəki islahatlar barədə müsbət fikirlər bildirmiş, lakin prezident mandatını gücləndirən təklifləri tənqid etmişdir. Biz, xarici müşahidəçilər kimi, düzəlişlərin mahiyyətinə müdaxilə etmək istəmirik. Lakin qeyd edirik ki, Azərbaycan xalqı güclü icra hakimiyyətinə dəstəyini açıq-aydın ifadə etdi. Bu, referendum günü beynəlxalq müşahidəçilərə müraciət edən bir çox seçicilər tərəfindən ifadə edilmişdir. Seçicilər qeyd etmişlər ki, Ermənistanla davam edən müharibə, geosiyasi qeyri-sabitlik, fundamentalizmin artması, terrorçuluq təhdidi və beynəlxalq iqtisadi və maliyyə böhranı bugünkü çətin dövrdə istənilən təhdid və problemləri həll etməyə qadir olan güclü və möhkəm hökumətə imkan yaradan konstitusiya modelini dəstəkləmək üçün əsas səbəblərdir".

Sonda, beynəlxalq müşahidəçilər ölkəni sabit və demokratik institutlar yaratmağı davam etdirməyə çağırır və Azərbaycan hakimiyyətini Venesiya Komissiyası ilə sıx əməkdaşlığa dəvət edir. Onlar eyni zamanda ölkəni beynəlxalq demokratik standartlar və xüsusilə, ATƏT və Avropa Şurasının qətnamə və öhdəliklərinə riayət etməyi davam etdirməyə həvəsləndirir.

Onlar, həmçinin bütün beynəlxalq təşkilatları Mərkəzi Seçki Komissiyası və Azərbaycan hakimiyyəti ilə konstruktiv dialoqu davam etdirməyə çağırır.

Bəyanat 35 beynəlxalq müşahidəçi adından, deputat Anglu Farrugia, Malta Parlamentinin Spikeri, ASMA Müşahidə Missiyasının rəhbəri tərəfindən imzaları ilə təsdiqini tapıb.

## Beynəlxalq QHT-lər qrupu: "Konstitusiya referendumu günü ərzində ölkədə mühitin dinc və sakit olduğunu müşahidə etdik"

Sentyabrın 26-da baş tutmuş referendum səsvermədsini Beynəlxalq QHT-lər qrupu da izləyib. Seçkilərin nəticəsi barədə qrupun yaydığı press-relizdə bildirilir ki, Azərbaycan Respublikasında keçirilmiş konstitusiya referendumu ölkənin siyasi sabitliyinin yeni zəmanətidir. Belə ki, Azərbaycan vətəndaşlarının səsverməsinə təqdim edilmiş konstitusiyaya düzəlişlər azadlıqları gücləndirəcək və demokratiyanı müdafiə edəcək. SİTAT: "Bu düzəlişlər hər hansı hakimiyyət boşluğunun qarşısını alaraq, ölkə institutlarının sabitliyini təmin edəcək. Türkiyədə baş vermiş son hadisələri nəzərə alsaq, bu, həyati əhəmiyyət kəsb edən məsələdir.

Beləliklə, biz konstitusiya referendumunun nəticələrini olduqca diqqət mərkəzində saxlayırıq. Avropa İttifaqının tərəfdaş dövlətində siyasi sabitlik və vətəndaşların azadlıqlarının qorunması beynəlxalq əlaqələrin inkişafının mühüm zəmanətidir. Komandamız 49 səsvermə məntəqəsində müşahidə apardı və 5 məntəqədə səslərin sayılmasını izlədi. Səsvermənin yüksək səviyyədə keçdiyini müşahidə etdik, səslərin sayılması prosesində qanun pozuntularının şahidi olmadıq, bu isə prosesin Azərbaycan vətəndaşlarının gözləntilərinə cavab verdiyinin aydın göstəricisidir. Biz, eyni zamanda konstitusiya referendumu günü ərzində ölkədə mühitin dinc və sakit olduğunu müşahidə etdik".

Press-relizi imzalayanlar - Belçikanın Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzinin nümayəndəsi və Belçikanın Polis üzrə Araşdırma Mərkəzinin nümsayəndəsi Bourdoux Gilis təmsil olunduqları Beynəlxalq QHT qrupu adından onlarla əməkdaşlıq edən Belçika İnsanlar Arasında Əməkdaşlığın Yenilənməsi Alyansına da təşəkkür ediblər.

Nəticədə, bir daha təsdiq olunub ki, bəzi qərəzli beynəlxalq qurumların iddialarına baxmayaraq, onların Azərbaycanda baş tutmuş referendumla bağlı çabaları nəticəsiz qalıb. Çünki faktlar tamamilə əksini göstərir.

***Rövşən NURƏDDİNOĞLU***



SAMİR

## Cəmil Həsənlinin anti-Azərbaycan ruhunda yazılmış kitabını kimlər maliyyələşdirəcək?

***Xədicə İsmayılın böyük maliyyə imkanlarına malik olduğu şəksizdir və bu, heç kimdə zərrə qədər şübhə doğurmur. Türkiyədə və Gürcüstanda gəlirli biznes sahələrinə sahiblik edən X.İsmayılın ABŞ və bir sıra Avropa dölətlərin də bank hesabları da mövcuddur. Belə ki, Türkiyədə bacısının adına sənədləşdirdiyi biznes sahələrindən gələn pulların böyük bir qismi müxtəlif şəxslərin adına kommersiya banklarında depozit olaraq yatırılıb. X.İsmayılın anasının, bacısının və müxtəlif şəxslərin adına xarici banklara qoyduğu milyonlarla depozitlərlə bağlı tutarlı faktlarla çıxış edəcəyik. Bu haqda daha sonra... Bu adamın onlarla "NİDA"-çı gəncə aylıq 500 manat məbləğində maaş verməsi də təsadüfi deyil. Onun bu qədər vəsaiti hardan əldə etməsi ilə bağlı da faktlarımızı dəyərli oxucularımıza sübutlarla təqdim edəcəyik. Lakin...***

X.İsmayılla bağlı "SƏS" qəzetinin redaksiyasına maraqlı məlumat daxil olub. AXCP sədrinin sabiq müşaviri, partiyanın üzvü Sahib Kərimlinin iki gün öncə öz yaxınları ilə söhbətində işlətdiyi "Cəmil Həsənlinin bütün çap xərclərini Xədicə öz üzərinə götürdü" deməsi təəccüb doğurmur. Əslində, söhbət hansı çap xərclərindən gedir? Məsələ ilə bağlı araşdırma apardıq. Məlum oldu ki, C.Həsənli dağıdıcı şər-böhtan dolu və tarixi faktların tamamilə saxtalaşdırıldığı kitab üzərində işləyir. Bu kitabın bütün çap xərclərini də X.İsmayıl öz üzərinə götürüb. Araşdırmamız nəticəsində C.Həsənlinin çap edilməsi nəzərdə tutulan kitabı ilə bağlı bütün müxalifətçilərdən pul yığmaq haqqında qərar qəbul olunubmuş. Lakin bu radikal müxalifət düşərgəsində böyük narazılığa səbəb olduğuna görə, X.İsmayıl bütün çap xərclərini ödəyəcəyi ilə bağlı üzərinə öhdəlik götürüb.

Məsələnin daha maraqlı tərəfi isə X.İsmayılın çap xərclərini öz üzərinə götürməsinin pərdəarxası tərəfləridir. Belə ki, C.Həsənlinin yazdığı kitabın çap xərcləri onun şəxsən cibindən ödənilməyəcək. Kitabın bütün xərcləri X.İsmayılın vasitəçiliyi ilə "Lobal Risk İnsights" təşkilatı tərəfindən ödəniləcək. Bu həmin təşkilatdır ki, 26 sentyabr referendumundan bir gün öncə Azərbaycan dövləti haqqında təxribat dolu hesabat yaymışdı. Təşkilatın yaydığı məqalədə yazılır: "Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin altında olmasından qıcıqlanır. Çünki 3 il bundan öncə də adıçəkilən təşkilat yaydığı hesabatda göstərirdi ki, guya yaxın müddətdə Cənubi Qafqazda böyük müharibənin meydanına çevriləcək. Bu məsələnin başqa tərəfi, mətləbə keçək!

C.Həsənlinin yazdığı kitab haqqında məlumatı olan şəxslərdən biri deyir: "Cəmil müəllim 2010-cu ilə kimi Azərbaycanda baş verən müsbət dəyişikliklərlə bağlı bircə cümlə belə işlətməyib. Çünki 2010-cu ilə qədər bu adam deputat olub və çıxışlarında hökumətin uğurlu inkişaf strategiyasından danışıb. Ona görə də, Cəmil müəllim son 6 ilin şişirdilmiş, qərəzli, sırf radikal müxalifət dünyagörüşü ilə hazırlanmış bu kitabında ölkədə baş verən müsbət olayların heç birinə toxunmayıb, hətta buna işarə etməyib".

Araşdırmamız nəticəsində o da məlum oldu ki, C.Həsənlinin kitabı ingilis, rus, alman və fransız dillərinə də tərcümə olunacaq. Hətta kitabın təqdimatını Avropa ölkələrindən birində keçirməyi də planlaşdırıblar.

# Heydər Əliyev fenomeni və Azərbaycanda insan hüquqları

***Azərbaycanın sovet dövrünü Heydər Əliyevə qədərki dövr, Heydər Əliyev dövrü və Heydər Əliyevdən sonrakı dövr olmaqla üç yerə bölürlər. Heydər Əliyevə qədərki dövr "Ağır sınaqlar" dövrü (1920-1969), Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünü "Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması" kimi səciyyələndirirlər. Y. Mahmudov Heydər Əliyev fenomenini dünyanın və Azərbaycanın böyük tarixi şəxsiyyətlərilə, dünya şöhrətli dövlət başçıları ilə müqayisə edərək, ümumdünya tarixində müstəsna rolu olan dahi hesab edir: "Tarix yalnız dahi şəxsiyyətləri nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk edir. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşir, Babək, Şəmsəddin Eldəgiz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir.***

Əsrlər keçdikdən sonra - XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, de Qoll kimi nadir simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu".

Heydər Əliyev şəxsiyyətini öyrənilməmiş dünya hesab edən müəllif bu dahinin misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tutmaq bacarığını "Allahın ona bəxş etdiyi vergi" sayır.

A.Fəzail Heydər Əliyevin dövlətçiliyindəki müstəsna rolunu üç əsas tarixi mərhələyə bölür: 1. 70-ci illərin qeyri-leqal hazırlıq mərhələsi. 2. 90-cı illərin birinci yarısında fəal mübarizə mərhələsi. 3. Dövlət quruculuğunun başa çatdırılması və möhkəmləndirilməsi mərhələsi.

Qeyd edək ki, dünyadakı qlobal siyasi kataklizmlərin məntiqi sonluğu kimi SSRİ dağıldı və bütün müttəfiq respublikalar kimi Azərbaycanın da 1991-ci ildə qəbul etdiyi müstəqillik haqqında Konstitusiya Aktı dörd il müddətində Azərbaycan Respublikasının Əsas Qanunu oldu. 1995-ci ildə qəbul edilən 12 fəsil - 158 maddədən ibarət olan konstitusiya Azərbaycan dövlətinin hüquqi-qanunvericilik müstəvisini dünyanın mütərəqqi və demokratik dəyərləri ilə adaptasiya etdi.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilmiş (maddə 7), insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipləri göstərilmiş (maddə 24), dövlətin hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verməsi burada təsbit olunmuşdur (maddə 26). Azərbaycan Respublikası Konstitusiyasında fikir, söz və s. azadlıqların qanunla elan edilməsi, ölkədə demokratik cəmiyyət quruculuğu istiqamətində geniş imkanlar açır.

Ulu Öndər Heydər Əliyev dahi tarixi şəxsiyyət kimi liberal və demokratik dəyərlərə söykənən hüquqi dövlət qura bildi. Heydər Əliyev universal zəka sahibi olmaqla, yüksək mənəviyyatı quruculuq qabiliyyətilə vəhdət təşkil edən tarixi şəxsiyyətdir.

Əksər tədqiqatçılar Heydər Əliyevə aşağıdakı mənəvi-siyasi keyfiyyətlərin xas olduğunu qeyd edirlər: 1. Uzaqgörənlik. 2. Cəsarətlilik. 3. Qətiyyətlilik. 4. Mərdlik. 5. Əyilməzlik. 6. Yenilməzlik. 7. Saflıq, paklıq, duruluq. 8. Dönməzlik. 9. Müdriklik, aqillik, kamillik. 10. Əqidə bütövlüyü. 11. Siyasi məsuliyyət. 12. Ehtiyatlı davranış. 13. Məntiqi idrak. 14. Dəyanətlilik. 15. Dərin, universal zəka. 16. Polad iradə. 17. Mübarizlik. 18. Mətinlik. 19. Vətənə və xalqa sədaqət. 20. Həqiqətpərəstlik. 21. Ədalətlilik. 22. Səxavətlilik. 23. Quruculuq. 24. Güclü yaddaş və hafizə. 25. Dərin, universal biliklər sistemi.

Heydər Əliyev qarşısına qoyduğu məqsədinə çatmaq üçün mübarizliyinə, mətinliyinə və dözümlülüyünə arxalanırdı. O, heç bir əks-təsiri olan gücə əhəmiyyət vermir, ancaq özünün dəmir iradəsinə söykənən mübarizliyinə güvənirdi, bu xasiyyəti onun prinsipiallığı idi.

Heydər Əliyev hüquqi dövlətin əsas təsisatlarını və atributlarını, konstitusiyanı, prezidentliyi, dövlət rəmzlərini və bütün digər dövlətçilik atributlarının qorumuşdur. "Heydər Əliyev bu xüsusdan ölkə prezidentliyini atributların rəmzi kimi düşünmüşdür, Onun adına heç kəsin xələl gətirəcəyinə imkan verməmişdir".

Şübhəsiz ki, dövlətçiliyimizin indiki mərhələyə gəlib çıxmasında Heydər Əliyev şəxsiyyətinin müstəsna rolu oldu. M.Əlizadə Heydər Əliyevin qeyri-adi dövlətçilik qabiliyyəti ilə fərqləndiyini xüsusi nəzərə çatdırır: "Heydər Əliyev qədər dəqiq, səhvlərə yol verməyən dövlətçilik ömrü yaşayan tarixi şəxsiyyətlərimiz olduqca azdır. Heydər Əliyevin də iştirak etdiyi şərait dövlətçilik qədər qarışıq o qədər mürəkkəb, o qədər ziddiyyətli, o qədər gərgin olmuşdur ki, onun düşüncə qüdrətinə, hər bir hadisəni böyük müdrikliklə qavramasına, ağıl süzgəcindən keçirməsinə və ona münasibətini doğru-dürüst şərh verməsinə həsəd aparmamaq olmur".

Heydər Əliyev fenomeninin dövlətçilik təcrübəsi və qeyri-adi mənəvi-psixoloji keyfiyyətlərilə vəhdəti S.Xəlilovun tədqiqatlarında da öz əksini tapmışdır. Heydər Əliyev müdrikliyini həm milli, həm də ümumbəşəri meyarlara cavab verən sinkretik müdriklik hesab edən, onu qeyri-adi, unikal bir şəxsiyyət kimi səciyyələndirən, bu böyük dahinin əməli fəaliyyəti və həyatının yüksək dərəcədə önəmli və örnək olduğunu, Heydər Əliyev fenomeninin şəxsi həyatdan, siyasi fəaliyyətdən kənara çıxan aspektlərinə toxunan müəllif göstərir ki, fenomenal yaddaş, güclü məntiq, misilsiz natiqlik məharəti, qeyri-adi intuisiya, nəhayətsiz fikir dünyası, millilik və ümumbəşəriliyin, bədii duyumla rasional düşüncənin, sadə görünüşlə mürəkkəb məzmunun, mülayimliklə sərtliyin, səmimiyyətlə zəhmin bir şəxsiyyətdə - Heydər Əliyevdə vəhdəti onun təkrarsızlığının, unikallığının və fövqəladəliyinin əsas səbəblərindən biridir. S.Xəlilov Heydər Əliyevin xalqın inkişaf səviyyəsinə uyğun islahatlar apardığını, Azərbaycanda hüquqi dövlətin xalqla birlikdə inkişaf etdirilməsinə üstünlük verdiyini, hüquqi dövlət quruculuğunun atributlarından biri kimi xalqın siyasi maarifləndirilməsinə önəm verdiyini diqqətə çatdıraraq, Ulu Öndərin siyasi maarifçilik və əməli fəaliyyətinin əsas fəlsəfi mahiyyətini şərh edir: "Heydər Əliyev öz fikirlərini daha çox dərəcədə çıxışlarında ifadə edir. Lakin çıxışlar, bir qayda olaraq, iki səviyyədən, iki qatdan ibarət olur: görünən qat və alt qat. Birincisi, hər bir çıxış konkret, real bir hadisə ilə bağlı olduğundan, tariximizin müəyyən bir səhifəsini əks etdirir. Bunlar Azərbaycanın çağdaş ictimai-siyasi, mədəni-mənəvi həyatını öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. İkincisi, Heydər Əliyev bəzən konkret hadisənin çərçivəsindən kənara çıxır, hadisələrə aid ümumiləşmiş nəzəri fikirlər söyləyir.

Müəllif göstərir ki, Ulu Öndər əməli fəaliyyətində də, Azərbaycanda gedən prosesləri lokal deyil, ümumbəşəri səviyyədə götürürdü. "Yerli hadisələr regional kontekstdə, regional hadisələr isə beynəlxalq miqyas üçün səciyyəvi olan ümumi tendensiyalar, meyillər kontekstində nəzərdən keçirilir".

Heydər Əliyevin Azərbaycanda hüquqi dövlət quruculuğuna millilikə ümumbəşəriliyin vəhdəti olan proses kimi yanaşması, məhz bundan irəli gəlirdi.

Heydər Əliyev dövlət başçısı kimi təkcə peşəkar siyasi xadim deyil, güclü fəlsəfi təfəkkürə malik müdrik Prezident idi. Heydər Əliyevə ümumxalq məhəbbəti qazandıran səbəblərdən biri də, məhz Onun müdrikliyi idi. Bu barədə S.Xəlilov çox düzgün yazır: "Heydər Əliyevin Azərbaycanın tarixi, elmi, mədəniyyəti, ictimai-siyasi və fəlsəfi fikri ilə bağlı hərtərəfli biliyə malik olması Azərbaycan xalqının ağsaqqallıq, böyüklük, liderlik təsəvvürlərilə üstüstə düşür. Ona görə də Heydər Əliyevə olan ümumxalq sevgisinin səbəblərindən biri də onun müdrikliyidir".

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi, 1993-1995-ci illərdə Azərbaycanın müstəqillik və dövlətçilik tarixində əsas yer tutur. Bu dövrdə Azərbaycan dövlətinin əsas vəzifələri aşağıdakılar idi: Azərbaycanın dövlət müstəqilliyini qorumaq; vətəndaş müharibəsi təhlükəsinin olduğu bir zamanda dövlət aparatında inzibati idarəetmənin normal fəaliyyətini təmin etmək; mövcud daxili və xarici təhlükələrdən milləti və dövləti qorumaq; ölkənin iqtisadi, siyasi və digər sahələrində formalaşmaqda olan yeni ictimai münasibətlərin tələblərinə cavab verən normativ-hüquqi baza yaratmaq.

Z.Əsgərov Heydər Əliyevin hüquqi dövlətin formalaşmasında oynadığı rola diqqəti çatdıraraq göstərir ki, Ulu Öndər hüquqi dövlətin aşağıdakı təməl prinsiplərini müəyyənləşdirdi: hüquqi dövlət quruculuğunda tarixi varisliyin qorunması; demokratiyanın inkişafı; siyasi plüralizm; qanunçuluq iqtisadiyyatda sərbəstlik, azadlıq; insan hüquq və azadlıqlarının qorunması.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Heydər Əliyev hüquqi dövlət quruculuğu zamanı tarixi, milli ənənələrə söykənməklə yanaşı, dünya təcrübəsindən demokratik prinsiplərdən bəhrələnməyi də əsas şərt sayırdı. Ulu Öndər hüquqi dövlətin əsas prinsiplərinin gerçəkləşməsini təmin etdi. Bu qanunun aliliyi prinsipi, vətəndaşların hüquq və azadlıqlarının reallığı prinsipi; dövlətin və şəxsin qarşılıqlı cavabdehliyi prinsipi; hakimiyyətin qanunverici, icraedici və gerçəkliyini, onun ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri bir sistemdir. Bizim borcumuz Onun söylədiyi fikirləri və əməli fəaliyyətini nəzəri təfəkkür səviyyəsində təhlil etməklə bu konseptual sistemin təməllərini üzə çıxarmaqdır".

S.Xəlilovun fikrincə, Heydər Əliyevin müdrikliyi ağıl və gücün, tarix və müasirliyin vəhdətindən çıxışa, əsası qeyri-əsasdan, ali məqsədi cari məqsədlərdən fərqləndirmək qabiliyyətinə, gerçəkliyin müxtəlif sahələri arasında əlaqəni görməyə, istənilən tərəflə münasibətləri qarşı tərəfin maraqları prizmasından çıxış edərək qurmağa əsaslanır.

Z.Qaralov Heydər Əliyevin dövlətçilik və mənəvi irsindən Onun davamçılarına aşağıdakıları tövsiyə edir:

- xalqa xidmət etməyi Ondan öyrənmək;
- dövlətçiliyin qorunmasında Onun seçdiyi yola sədaqətli olmaq;
- insanlara mənəvi dayaq durmaqda Onun təcrübəsinə əsaslanmaq;
- hər peşə sahibi ilə Onun istəklərinə uyğun qarşılıqlı münasibət qurmağı Ondan öyrənmək;
- görülmüş işləri və iş adamlarını qiymətləndirməkdə, diqqətdə Onun təcrübəsinə istinad etmək;
- milli-mənəvi və maddi dəyərləri zənginləşdirmək bacarığını Ondan öyrənmək;
- insanları düzgün yola yönəltmək, dünyaya, burada baş verən hadisələrə sağlam düşüncə və açıq gözlə baxmaqda Onun irsinə istinad etmək;
- səliqə-sahman yaratmaqda, nümunəvi davranışda daim Onu əsas götürmək.

Bir sözlə, Heydər Əliyev irsi dövləti idarəetmə nümunəsi olmaqla yanaşı, həm də nəsilləri tərbiyələndirən nümunəvi mənəviyyat örnəyidir.

Beləliklə, Heydər Əliyev Azərbaycanda dövlətçiliyin müasirliyə, milliliyə, ənənəviliyə əsaslanan məktəbini yararmışdır. Onun dövlətə xidmətinin təbiətində maddiləşmiş ictimai qüvvə hakimiyyətin normativ qərarlar qəbul etməsi mexanizmini hərəkətə gətirmişdir.

Ulu Öndər dövlətçilik şüurunu əks etdirən demokratik etatizmi, müstəqilliyin, dünyəviliyin, respublikaçılığın, demokratikliyin, hüquqiliyin milli-mənəviliyin vəhdəti olan hüquqi dövlətin təşəkkülü və inkişafı üçün fəaliyyət göstərmişdir ki, bu hüquqi dövlət və vətəndaş cəmiyyəti mentallığı, ənənəviliyi, eləcə də, müasirliyi, ümumbəşəriliyi nəzərə alır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 28 sentyabr


## Qəhvə içən qadınlar daha az depressiyaya düşür



Tədqiqatlar göstərir ki, qadınlar kişilərə nisbətən 2 dəfə artıq depressiyaya düşürlər. Çünki qadınların həm özlərinə tələbatı çoxdur, həm də başqalarından daha çox diqqət, qayğı umurlar. Onu görmədikdə depressiyaya düşürlər. Kişilər də depressiyaya düşürlər, ancaq onlara depressiyadan çıxmaq daha çətin olur. Çünki bizdə ictimai qınaq var, "kişilər ağlamaz" deyirik. O, fikirlərini, dərdlərini bölüşə bilmir və bu, kişilərdə daha çox infarkt, insult halları yaranmasına gətirib çıxarır. Belə faktlar da var ki, xanımlar depressiyaya düşəndə, xüsusən xəyanətə uğrayanda saçlarını kəsdirir, hörüklərini kəsib divardan asırlar. Burada məqsəd xarici görünüşündə yenilik etmək, yeni bir imic yaratmaq deyil. Bu cür xanımlar öz xarici görünüşlərinə sanki bir xəsarət yetirir və bunu özünəqəsdin bir növü kimi qiymətləndirmək olar. Amma xanımlar kişilərə nisbətən depressiyadan tez çıxırlar, çünki onlar ən sadə vasitə - alış-veriş etməklə özlərini motivə edirlər. Gündə bir neçə fincan qəhvə içən qadınlar depressiyadan daha az əziyyət çəkirlər. Amerika alimlərinin yeni araşdırmalarinin nəticələri bunu deməyə əsas verir. Nəticələri Amerika Tibb Assosiasiyasinin jurnalinda dərc olunmuş araşdırmalar 10 il davam edib. Alimlərin müşahidə obyekti isə ABŞ-da 50 min tibb bacısı olub. Onlar müəyyən ediblər ki, gün ərzində 2-3 fincan qəhvə içən qadınlarda depressiyaya düşmək riski 20% azdır. Tədqiqatçılar ehtimal edir ki, kofein beyin hüceyrələrini bir sıra toksinlərdən qoruyur.

## Uşaqlar inam qazanmaq üçün yalan danışır?



Uşaqların yalan danışması valideynləri ən çox narahat edən məqamdır. Amerika alimlərinin gəldiyi nəticəyə görə, yalan danışan uşağın mütləq yaşına baxılmalıdır. Əgər uşağın yaşı 5 yaşdan azdırsa, onun yalan danışmasındakı məqsəd qətiyyən aldatmaq deyil. Kifayət qədər sevgi görməyən, gördüyü sevgidən razı qalmayan, diqqət və qayğıdan məhrum yaşayan uşaqlar nəzərləri özlərinə çəkmək üçün qəhrəmanlıq hekayələri uydururlar. Bu uşaqlar xəstələnmək və döyülmək bahasına olsa da hər çarəyə baş vurarlar. Dəcəllik edən və "yalan danışan" uşaqların məqsədi valideynlərini incitmək və ya əsəbləşdirmək deyil. Ancaq uşaq dəcəllik etməklə lazımi diqqət və qayğını əldə edə bilməzsə, sevildiyindən əmin olmazsa xarakterindəki davakarlıq duyğusu özünü daha qabarıq büruzə verməyə başlayar. İbtidai və yuxarı siniflərdə oxuyan uşaqlarda ən çox müşahidə olunan yalan növlərindən biri də məhz inam qazanmaq üçün söylənilən "yalan"dır. Əgər uşaq dərslərini yaxşı oxumadığına görə məktəbdə və evdə tənbehlənər, tənbəlliyi üzünə vurular və axmaq adlandırılarsa, bu, uşaqda sonradan müalicəsi çətin olan alçaldılma duyğusunun formalaşmasına səbəb olar. Uşaq özünün dəyərsiz, axmaq, heç bir iş bacarmayan biri olduğunu düşünməyə başlayar.

## Şəhriyar Məmmədyarov blits-turnirin qalibi olub



Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov Moskvada səkkizinci dünya çempionu Mixail Talın xatirəsinə həsr edilmiş ənənəvi şahmat turnirinin açılışında keçirilən blits-turnirin qalibi olub. Rusiya KİV-lərinin verdiyi məlumata görə, Azərbaycan nümayəndəsi 9 mümkün xaldan 7,5 xal toplayaraq birinci yeri tutub. İkinci yeri Ermənistan nümayəndəsi Levon Aronyan (5,5 xal), üçüncü yeri rusiyalı Yan Nepomnyaşşiy (5 xal) tutub. Əsas turnirin start turu üçün püşkatmada Şəhriyar Məmmədyarov beşinci nömrəni seçib. İlk görüşdə ağ fiqurlarla oynayacaq Ş.Məmmədyarovun rəqibi Çin nümayəndəsi Li Çao olacaq. Birinci turun digər partiyalarında Pyotr Svidler və Vladimir Kramnik, Yan Nepomnyaşşiy və Yevgeni Tomaşevski, erməni Aronyan və israilli Boris Gelfand, hollandiyalı Aniş Giri və hindistanlı Vişvanatan Anand qarşılaşacaq. Oktyabrın 6-da başa çatacaq turnirin mükafat fondu 200 min dollara bərabərdir.

## Azərbaycan gimnastı Qran-pri yarışlarında gücünü sınayıb

Grand Prix Eilat Rhythmic Gymnastics 2016

İsrailin Eylat şəhərində bədii gimnastika üzrə Qran-pri yarışları keçirilib. AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasının rəsmi saytına istinadla xəbər verir ki, bu ildən böyüklərin proqramı üzrə çıxış edən Jalə Piriyeva ölkəmizi yarışda uğurla təmsil edərək, top və lentlə hərəkətlərdə finala vəsiqə qazandı. Finalda J.Piriyeva topla 5-ci, lentlə hərəkətlərdə isə 6-cı yerdə qərarlaşıb.

## İki cüdoçumuz beynəlxalq reytinq cədvəlində liderliyini qoruyub



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. AZƏRTAC xəbər verir ki, oktyabr ayı üçün açıqlanan siyahını Azərbaycan millisi üçün uğurlu saymaq olar. Belə ki, yığmamızın aparıcı cüdoçularından yalnız birinin mövqeyində dəyişiklik olub. Tərlan Kərimov (66 kq) 35-ci yeri 36-ya dəyişib. Ondan fərqli, Rüstəm Orucov (73 kq) və Elmar Qasımov (100 kq) yenə öz çəkisinin birincisidir. Yığmamızın digər aparıcı cüdoçularına gəlincə, İlqar Müşkiyev (60 kq) 14-cü, Nicat Şıxəlizadə (66 kq) 8-ci, Məmmədəli Mehdiyev (90 kq) 20-ci, Elxan Məmmədov (100 kq) 19-cu, Uşanqi Kokauri (100 kq-dan yuxarı) 22-ci və Aişə Qurbanlı (48 kq) 40-cı sıradadır.

## "Qəbələ"-"Maynts" görüşünü litvalı hakimlər idarə edəcək



UEFA Avropa Liqasının qrup mərhələsində keçiriləcək "Qəbələ"-"Maynts" oyununun hakimləri açıqlanıb. AZƏRTAC xəbər verir ki, UEFA bu qarşılaşmanı litvalı hakimlər briqadasına həvalə edib. Oyunun baş hakimi Gediminas Majeyka olacaq. Ona Vyautas Şimkus və Vytenis Kazlauskas kömək edəcəklər. Dördüncü hakim funksiyasını Vladimir Gerasimov yerinə yetirəcək. Görüşün əlavə köməkçi hakimləri Sergeyus Sliva və Yuri Paskovski olacaq. Hakim-inspektor kimi Bakıya gürcüstanlı Levan Paniaşvili, UEFA nümayəndəsi kimi isə hollandiyalı Eugene Vesterink gələcək. Qeyd edək ki, "Qəbələ"-"Maynts" qarşılaşması sentyabrın 29-da 8-ci kilometr qəsəbə stadionunda keçiriləcək.

## Kempoçularımız Avropa çempionatında iki medal qazanıblar



Azərbaycanın kempo komandası Litvanın Kaunas şəhərində keçirilən qrappling üzrə Avropa çempionatında iştirak edib. Azərbaycan Kempo Federasiyasından AZƏRTAC-a bildiriblər ki, çempionatda komanda 8 idmançı ilə iştirak edib. Kempoçulardan 17 yaşlılar arasında Toğrul İbrahimli (56 kq) və böyüklərin mübarizəsində Pərvin Hacıyev (100 kq) gümüş medala sahib olublar. Avropa çempionatında komandaya Beynəlxalq Kempo Federasiyasının Azərbaycanda səlahiyyətli nümayəndəsi Rauf İbrahimov başçılıq edib. Qeyd edək ki, kempoçular yarışa Gənclər və İdman Nazirliyinin dəstəyi ilə qatılıblar.

### ELAN

Polşa Respublikasının vətəndaşı Wasyl Jasek Ryszardın Azərbaycan Respublikasının ərazisində MYİ 0283845 nömrəli müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Amerika Birləşmiş Ştatlarının vətəndaşı Mynard Çraig Jamesin Azərbaycan Respublikasının ərazisində MYİ 0310614 nömrəli müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Zaqatala rayonunun Bəhmənli kənd sakini Burcayeva Səlimə İbrahim qızına 25.09. 2003-cü ildə rayonun Aqrar İslahat Komissiyasının 110 saylı qərarı ilə verilən və Dövlət Torpaq Kadastrı kitabında A № 434595 saylı qeydiyyatında olan, eyni zamanda, 1996-cı ilin 18 iyul tarixində 38 saylı qərarına əsasən, həyətyanı torpaq sahəsi təyinatı ilə bağlı Dövlət Torpaq Kadastrı kitabında uçota alınan A № 118514 saylı qeydiyyat sənədləri itdiyi üçün etibarsız sayılır.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500